QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 050 (6250) 18 mart 2021-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# “Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək”



Bax3

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində olublar

## İşğaldan azad olunmuş ərazilərə Azərbaycanın dəvət etdiyi UNESCO missiyası ilə bağlı müzakirələr aparılıb



Bax 2

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin UNESCO-nun Baş direktoru Odre Azule ilə telefon danışığının davamı olaraq, 2021-ci il fevralın 15-də və martın 16-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri...**



Bax 4

## Azərbaycandakı siyasi partiyaların rəhbərləri və bir sıra politoloqlar işğaldan azad olunmuş Ağdam rayonuna səfər ediblər

Martın 17-də Azərbaycandakı siyasi partiyaların rəhbərləri və bir sıra politoloqlar işğaldan azad olunmuş Ağdam şəhərində Qarabağ xanlarının türbələrinin də yerləşdiyi İmarət qəbiristanlığını ziyarət ediblər.

## Paşinyan Xocavənddə Qaregin Njdenin abidəsinin sökülməsi tapşırığını verdi



Bax 7

ArmVoice erməni teleqram kanalı təcili xəbər yayaraq qeyd edir ki, Ermənistanın baş naziri Nikol Paşinyan Almaniya faşizminə xidmət göstərmiş erməni terrorçusu...

## Əli Kərimlinin “qoruyucu mələyi” Sevinc Osmanqızı arasında kommunikasiya xətləri...



Bax 14

Dünənə qədər gecə-gündüz “ingilis bayrağı” olan, ata qatili “yanlar”ın müdafiəsinə qalxan “Osmanqızı TV” kanalının rəhbəri Sevinc Osmanqızı ilə AXCP sədri Əli Kərimli arasında yaşanan son günlər günün əsas mövzusuna dönüb, daha...

## Paşinyan yenə çaşdı: ATƏT-in sədri qarşısında hansı bəyanatları irəli sürdü?



Ermənistanın baş naziri Nikol Paşinyan ölksindəki ağır siyasi-iqtisadi böhran vəziyyətini həll etməsi, ondan çıxış yollarını tapması yerinə yenidən sərsəm bəyanatları...

Bax 14

## Həkimdən XƏBƏRDARLIQ: Koronavirus bəzi insanlarda əlilliyə səbəb ola bilər



Bax 13

## Sağlam yaşayış, xoşbəxt ömür, yoxsa öldürücü virus?



Bax 8

## Ekspert: Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin inkişafı Moldova iqtisadiyyatı üçün yeni perspektivlər açar



Bax 7

## “Tuttosport”: Ronaldo “Mançester Yunayted”ə qayıdır!



Bax 16

# "Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Türkiyənin kənd təsərrüfatı və meşə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Türkiyə Respublikasının kənd təsərrüfatı və meşə naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nazir Bekir Pakdemirli Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.***

Prezident İlham Əliyev Türkiyə dövləti başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olundu. Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Slovakiyanın xarici və Avropa işləri nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Slovakiyanın xarici və Avropa işləri naziri İvan Korçokun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Slovakiyanın xarici və Avropa işləri naziri Bakıda sonuncu dəfə təxminən 20 il əvvəl olduğunu qeyd etdi, bu səfər zamanı paytaxtımızda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğuladı.

Söhbət zamanı siyasi əlaqələr, iqtisadi əməkdaşlıq, ticarət əlaqələrinin genişləndirilməsi və inkişaf etdirilməsi, minalardan təmizləmə sahəsində əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi, dövlətlərin ərazi bütövlüyü və suverenliyi, sərhədlərin toxunulmazlığı prinsiplərinin dövlətlərarası münasibətlərdə aliliyi qeyd olundu.

## Ali Radanın deputatı: Ukrayna Azərbaycanla hərtərəfli əməkdaşlığı inkişaf etdirmək niyyətindədir



**Azərbaycan Ukrayna üçün strateji tərəfdaşdır. Ukrayna Azərbaycanla hərtərəfli əməkdaşlığı inkişaf etdirmək niyyətindədir. Bu fikri AZƏRTAC-a açıqlamasında Ukrayna Ali Radasının deputatı İrina Allahverdiyeva söyləyib. Deputat bildirib ki, hər iki ölkə arasında bir çox istiqamətlərdə, o cümlədən enerji, turizm, kənd təsərrüfatı sahələrində əlaqələrin inkişafı üçün gözəl potensial mövcuddur. Bu potensialın reallaşdırılması istiqamətində müzakirələr davam etdirilir.**

Beynəlxalq təşkilatlarda əməkdaşlığın qənaətbəxş olduğunu deyən İrina Allahverdiyeva vurğulayıb ki, hər iki ölkə bir-birilərinin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. "Ukrayna hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bundan sonra da bu, belə də olacaq", - deyə Ali Radanın deputatı əlavə edib.

## İşğaldan azad olunmuş ərazilərə Azərbaycanın dəvət etdiyi UNESCO missiyası ilə bağlı müzakirələr aparılıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin UNESCO-nun Baş direktoru Odre Azule ilə telefon danışığının davamı olaraq, 2021-ci il fevralın 15-də və martın 16-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev UNESCO-nun Baş direktorunun ofisinin rəhbəri Nikolas Kassionides ilə videokonfrans formatında görüşlər keçirib.**

AZƏRTAC xəbər verir ki, görüşlərdə "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə" 1954-cü il Haaqa Konvensiyasına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərə Azərbaycanın dəvət etdiyi UNESCO missiyası ilə bağlı müzakirələr aparılıb.

Azərbaycanın UNESCO ilə əməkdaşlığa böyük önəm verdiyini, konstruktiv dialoqa həmişə açıq olduğunu qeyd edən Hikmət Hacıyev sonuncu videogörüşdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mədəni və dini abidələrə vurulmuş zərərin qiymətləndirilməsi üçün ölkəmizin UNESCO missiyasını qəbul etməyə hazır olduğunu bir daha diqqətə çatdırıb.

Hikmət Hacıyev 30 ilə yaxın işğal dövrü ərzində həmin ərazilərdə Azərbaycan xalqının mədəni və dini irsinə qarşı Ermənistanın törətdiyi vandalizmin miqyasının dəhşətli olduğunu bildirib.

Prezidentin köməkçisi görüşdə Azərbaycanın mədəni və dini abidələrin qorunması sahəsində nümunəvi təcrübəyə malik olduğunu, ölkəmizin beynəlxalq səviyyədə mədəni-dini abidələrin bərpasına töhfə verdiyini qeyd edib. O, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın nəcib təşəbbüsü ilə bu yaxınlarda Heydər Əliyev Fondunun və Azərbaycandakı dini icmaların təmsilçilərinin daxil olduğu nümayəndə heyətinin Vatikanda səfərdə olduğunu və səfər çərçivəsində Heydər Əliyev Fondu və Müqəddəs Taxt-Tacın Müqəddəs Arxeologiya Şurası arasında Müqəddəs Komodilya katakombalarının bərpasına dair yeni əməkdaşlıq müqaviləsinin imzalandığı haqqında məlumat verib.

# "Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində olublar*







**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Şuşa şəhərində olublar. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev dedi:**

-Dünən Azıxdan çıxdıq Şuşaya gəldik. Yollar hələ ki, çox bərbad vəziyyətdədir, çünki yol yoxdur, Zəfər yolu ilə gəlmişdik. Hələlik ancaq torpaq yoludur, çünki havalar soyuq keçir, asfalt döşəmək mümkün deyil. Palçıq idi və güclü duman var idi. Ona görə Azıxdan Şuşaya 1 saat 45 dəqiqəyə gəldik. Gecə Şuşada qaldıq. Səhər saat 9-da çıxmışıq və gedirik, bir neçə tədbir var. Hava açıqdır, ancaq yenə də buludlar şəhərin üstündədir.

Keçən dəfə yanvar ayında gəlmişdik. Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini Şuşaya qaytardıq. Bu gün bir daha Şuşaya gəlmək insana böyük zövq verir. Sol tərəfdə Şuşanın qarlı, dumanlı dağlarıdır.

Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Bu gün bərpa işlərinə start veriləcək.

Məscidlərin bərpası ilə bağlı artıq müvafiq göstərişlər verildi. İlkin araşdırmalar başlanıldı və yaxın gələcəkdə layihə təqdim ediləcək.

Şuşa bütün mövsümlərdə gözəldir.

Bulaqları da bərpa edəcəyik. Otuz il ərzində ermənilər bütün bulaqlarımızı qurudublar. Görün, şəhər nə gündədir, düşmən Şuşanı nə günə salıb.

Vaqifin məqbərəsinə yaxınlaşırıq. Artıq işlərə start verilib. Layihəyə baxmışam. Bax, burada, fotoşəkillər də var. Ulu öndər Heydər Əliyev burada olarkən həm açılışda, həm də Vaqif poeziya günündə iştirak edib. Tarixi bərpa edirik. Bu layihəni Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək, Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə gəldilər.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma bu kompleksin bərpası layihəsi ilə bağlı məlumat verdi. Bu layihə Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcək. Layihənin icrası zamanı məqbərənin əvvəlki vəziyyətinin bərpasına xüsusi diqqət yetiriləcək. 1992-ci ildə ermənilər Şuşanı işğal edərkən bu abidəni də vəhşicəsinə dağıdıblar.

Prezident İlham Əliyev: Mən bu şəkilləri arxivdən tapmışdım. Vaqif poeziya günləri keçirilir, 1982-ci ilin yay ayında. Məqbərənin önündə ulu öndər Heydər Əliyev. İnsanlar da bax, burada, bu tədbirdə iştirak edirdilər. Keçən dəfə burada olarkən bu yerə fikir verdim və dedim ki, arxivdən şəkillər tapılsın, burada nə olub və bu şəkil tapıldı. Görürsünüz, Vaqifin təsviri bax, bu divarda olmuşdur. Mənfur düşmən bunu da sökdü, bu mərməri də sökdü.

**Ardı Səh. 4**

***"Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir. Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən"***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi və "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3547 nömrəli Sərəncamının ləğv edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının əməkdaşlarına fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 9 mart tarixli 279-VIQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

# “Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində olublar*





Əvvəli-Səh-3

Bu da qəbirin üstündə sinə daşı idi. Vandal erməni bunu da sökübü. Bunu bərpa edəcəyik. Ulu Öndərin o vaxt Şuşaya səfəri ilə əlaqədar daha bir neçə şəkil tapmışam arxivdən, mən də buradayam. Bu da Cıdır düzündə. Bunu bir dəfə göstərmişdim, Natəvan bulağının önündə. Bir şəkil də var, onu da göstərməliyəm. Burada Vaqifin büstü də var idi. Keçən dəfə Şuşada olarkən mən göstərdim ki, ermənilər büstü söküb dükan tikiblər. Bax, budur. Vaqifin büstü, Ulu Öndər də baxır. Bu büstü də bərpa edəcəyik.

Sonra dövlətimizin başçısı, birinci xanım və Leyla Əliyeva Pənahəli xanın sarayının qalıqlarına baxdılar. Bu tikili Şuşa şəhərinin tarixi mərkəzində yerləşir və Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saray idi. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıdıblar.

Prezident İlham Əliyev: Bura Pənahəli xanın sarayı olub. Şuşanı quran, Şuşanı salan Pənahəli xan özü üçün burada saray tikdirib. İndi görün, ermənilər nə günə salıblar bu sarayı. Tarixi abidə idi. Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edib.

Bütün beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər bunu. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər.

Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir. Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Molla Pənah Vaqifin büstünün qoyulacağı əraziyə gəldilər. Molla Pənah Vaqifin büstünün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunacaq.

Prezident İlham Əliyev: Bu, postamentin bünövrəsidir. Ermənilər dağıdıblar, biz bərpa edəcəyik.

Erməni vandalları işğal zamanı Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansaray tarix-memarlıq kompleksini də dağıdıblar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Karvansaray tarix-memarlıq kompleksinə baxdılar.

Dövlətimizin başçısına burada görüləcək işlərlə bağlı məlumat verildi.

Şəhərdə erməni vəhşiliyi ilə üz-üzə qalan tikililərdən biri də Şuşa Dövlət Rəsm Qalereyasının binasıdır. Qalereya 1982-ci ildə yaradılıb və işğal dövrünədək - 1992-ci ilədək fəaliyyət göstərib.

Prezident İlham Əliyev: Bura Şuşa şəhərinin rəsm qalereyası olub. Azərbaycan hökuməti burada qalereya təşkil etmişdi. İşğal zamanı düşmənlər buradan öz məqsədləri üçün istifadə etmişlər. İndi tamamilə yenidən bərpa ediləcək və yenə də rəsm qalereyası kimi fəaliyyət göstərəcək.

> ***“Bütün beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər bunu. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər”***

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva “Qarabağ” mehmanxanasında aparılacaq təmir-bərpa işləri ilə tanış oldular. Mehmanxana ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilib. Bina baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaq.

Dövlətimizin başçısına və birinci xanıma Şuşa şəhərində tarixi-dini abidələrin bərpası ilə bağlı görülən işlər haqqında məlumat verildi.

Prezident İlham Əliyev: Otelin otaqları belə olacaq. İşğal dövründə oteli də demək olar ki, dağıdıblar, burada cəmi bir mərtəbə işləyib. Pis vəziyyətdə idi, qısa müddət ərzində şourum kimi hazırlanıb. Otelin bütün otaqları bu stildə olacaq.

“Qarabağ” otelində gedən yenidənqurma işləri ilə tanış olduq. İşğal dövründə otel faktiki olaraq fəaliyyət göstərmirdi, cəmi bir, ya iki mərtəbə fəaliyyət göstərirdi. Bu otel də sovet dövründə Azərbaycanın büdcəsi hesabına tikilmişdir və ona “Qarabağ” adı verilmişdir. Sonra mənfur düşmən otelin adını dəyişdirib “Şuşi palace” qoyub. “Şuşi” adlı bir şəhər yoxdur, olmayıb və heç vaxt olmayacaq.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa Xalça Muzeyində də oldular. Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan bu muzey də işğal zamanı ciddi ziyan görüb.

Dövlətimizin başçısı, birinci xanım və Leyla Əliyeva Şuşada Park otelin yerləşəcəyi binaya da baxdılar. Yenidənqurmadan sonra otel qonaqlarını müasir səviyyədə qarşılaya biləcək.

Prezident İlham Əliyev: Burada keçmiş sanatoriya korpusu olub. İşğal dövründə buradan kiçik otel kimi istifadə etmişlər, amma çox primitiv qaydada. Çox biabırçı bir şərait var idi. İndi yenidən bərpa edilir. Bu da şourumdur, otelin otaqları bax, belə olacaq və bu il otel artıq istifadəyə veriləcəkdir.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına icra olunacaq layihələrlə bağlı məruzə etdi.

Dövlətimizin başçısı Şuşada görüləcək işlərlə əlaqədar tapşırıq və göstərişlərini verdi.

Prezident İlham Əliyev: Şuşa sanatoriyasına da baxış keçirdik. Orada da korpusların bir çoxu ermənilər tərəfindən dağıdılıb. Amma bəzi korpuslardan istifadə etmək mümkün olacaq. Burada da kiçik otellərin yaradılması nəzərdə tutulur. Nəzərə almalıyıq ki, Şuşaya çox böyük turist axını olacaq, ona görə burada “beş”, “dörd” və “üç” ulduzlu otellər olmalıdır.

Buradan da şəhərə, şəhərin ətrafında yerləşən dağlara gözəl mənzərə açılır. Amma bir daha görürük, ermənilər burada demək olar ki, bir dənə də bina tikməyiblər. Bəlkə bu binanı tikiblər, bu da eybəcər bir tikilidir. Ancaq sovet vaxtında Azərbaycan tərəfindən tikilmiş binalardan istifadə etmişlər, azərbaycanlıların evlərində yerləşmişlər. Bütün bu evlər sovet vaxtından qalan evlərdir, “xruşşovka”lardır. Bunlar da öz müddətini çoxdan bitiriblər. Bu binaların vəziyyətinə indi diqqət yetirilməlidir.

Ardı Səh. 5

# "Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində olublar*





Əvvəli-Səh-4

Şuşada işğal dövründə təxminən 2000 adam yaşayırdı, onların da böyük hissəsi hərbçilər və onların ailə üzvləri idi. Ona görə də bu binaların böyük hissəsi boş qalmışdır. Baxın, burada bir dənə normal vəziyyətdə bina var, yoxsa yox?

Ermənilər Şuşanı erməni şəhəri kimi qələmə vermək istəyirlər. Halbuki, Şuşanın təməlini qoyan Pənahəli xan olub və həmişə burada azərbaycanlılar yaşayıb. Yaxşı, erməni şəhəri idisə, niyə əl gəzdirməmisiniz?. Şuşa kimi mənzərəsi, təbiəti olan şəhəri belə günə salmaq vəhşilikdir. Azərbaycanlıların evlərini dağıdıblar və hesab edirdilər ki, bu işğal əbədi olacaq. Biz işğala son qoyduq.

Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz. Bu da Realni məktəbin dağılmış binasıdır, görün, ermənilər bu binanı nə günə salıblar. Sol tərəfdə də mənə verilən məlumata görə, internat məktəbi olub. Bunu da dağıdıblar, ancaq fasad hissəsi qalıb.

Biz artıq Şuşadan ayrılırıq, ancaq yenə də ayrılmaq istəmirik. Şuşa insanı özünə o qədər cəlb edir ki, buraya gələnlər qayıtmaq, getmək istəmirlər. Ancaq indi biz Bakıya qayıtmalıyıq. Yolüstü Daşaltı kəndində dayanacağıq. O, kəndə də baxacağıq. Ondan sonra istiqamət Bakı şəhəridir.

Birinci xanım Mehriban Əliyeva: Hava günəşli, açıq, mavi səma.

Prezident İlham Əliyev: Şuşaya "hələlik" deyirik. Şuşanın girişində Azərbaycan bayrağı dalğalanır və bundan sonra əbədi dalğalanacaqdır. Aşağıda da Laçın dəhlizidir. Hava da yenə bizimlə həmrəydir. Günəş yolumuzu işıqlandırır. Bura isə Şuşa yarımstansiyasının binasıdır. Bu bina qısa müddət ərzində inşa edildi və Şuşanı dayanıqlı enerji ilə təchiz edəcəkdir. Keçən dəfə də yanvar ayında Şuşaya gələndə, Şuşaya yaxınlaşanda hava açıldı, Günəş bizi salamladı.

Buradan da Şuşanın qayaları gözəl görünür. Çünki biz haqq yolundayıq, işimiz də haqq işidir. Təbiət də bizi salamlayır. Çünki bu Azərbaycan təbiətidir.

Bura isə Daşaltı kəndidir. Daşaltı kəndi ilə də tanış olacağıq.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa rayonunun Daşaltı kəndinə gəldilər.

Aydın Kərimov: O, Böyük Kirs dağıdır. Şuşanın su mənbələrindən biri onun ətəyindən gəlir.

Birinci xanım: Bu, yeni Daşaltı hesab olunur?

Aydın Kərimov: Bəli.

Birinci xanım: O da köhnə Daşaltı.

Prezident İlham Əliyev: Bizim hərbçilər oradan gəliblər.

Həm sağ tərəfdə, həm də sol tərəfdə Daşaltı kəndinin gözəl mənzərəsidir. Daşaltı kəndi də işğalçılardan azad edilib. Məhz bizim müzəffər Ordumuz Daşaltıdan qalxaraq, sıldırım qayaları qət edərək Şuşaya daxil oldu. İrəlidə də Böyük Kirs dağıdır. Azərbaycanın gözəl təbiəti gözümüzün önündədir. Hansı tərəfə baxsan gözəllik, yaşıllıq. Bura Azərbaycan torpağıdır, Qarabağ torpağıdır. Bundan sonra Azərbaycan xalqı burada əbədi yaşayacaq.

XXX

Erməni qəsbkarlar tərəfindən 1992-ci ildə işğal olunan Daşaltı kəndi də hərtərəfli terrora məruz qalıb. Prezident İlham Əliyev kəndin bərpası ilə bağlı tapşırıqlarını verdi.

# Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfəri Türkiyə mediası tərəfindən geniş işıqlandırılıb






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın martın 15-də işğaldan azad edilən Füzuli və Xocavənd rayonlarına səfəri Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, qardaş ölkənin media orqanları səfərlə bağlı videomateriallar və fotolar təqdim ediblər. Hazırlanan informasiyalarda, həmçinin Prezident İlham Əliyevin çıxışındakı fikirlərə də da istinad edilib: "Mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə-yeksan etmişdir, bizim tarixi irsimizi silmək istəmişdir. Amma buna nail ola bilmədi. Biz bu torpaqlara qayıtmışıq."

Anadolu informasiya agentliyi, "CNN Türk", "TRT Haber", "A Haber", "Haber Global" telekanalları, eləcə də "Sabah", "Star" və s qəzetlərin saytları dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərə səfərini geniş işıqlandırıb.









# Çilinin "Infogate" saytı: Zəngəzur dəhlizi regional əməkdaşlığı stimullaşdıracaq

***Çilinin "Infogate" xəbər agentliyinin saytında "Zəngəzur dəhlizi regional əməkdaşlığı stimullaşdıracaq" sərlövhəli məqalə dərc edilib.***

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan və Rusiya prezidentləri, Ermənistan baş naziri tərəfindən 2020-ci il noyabrın 10-da imzalanan atəşkəs barədə üçtərəfli Bəyanatın regionun bütün ölkələrinə əməkdaşlıq üçün mühüm imkanlar yaratdığı qeyd olunur.

"Infogate" yazır ki, imzalanan Bəyanat 44 gün davam edən və Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnən İkinci Qarabağ müharibəsinə son qoydu. Sənəd təkcə hərbi əməliyyatların dayandırılmasını deyil, həm də Cənubi Qafqazda Ermənistanın təcavüzkar siyasəti səbəbindən təqribən 30 il məhdudlaşdırılan bütün nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutur. Çili agentliyi Bəyanatın bəndlərindən birinə istinadla qeyd edir ki, bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa ediləcək, Ermənistan Respublikası nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir.

Çilinin xəbər agentliyi diqqətə çatdırır ki, əməkdaşlıq və nəqliyyat nöqteyi-nəzərindən Zəngəzur dəhlizinin yaradılması Azərbaycan, Rusiya və Ermənistanın imzaladığı sənədlərin mühüm bəndi hesab olunur və Ermənistan da daxil olmaqla, regionun bütün ölkələrinin maraqlarına xidmət edir. Buna görə də Azərbaycan bu dəhlizin yaradılmasına və nəqliyyat əlaqələrinin bərpasına tərəfdardır, çünki əməkdaşlığı regionda möhkəm sülhün bərqərar olması üçün əsas vasitə hesab edir.

"Infogate" xəbər verir ki, fevralın 26-da Bakıda yerli və xarici KİV təmsilçilərinin iştirakı ilə keçirilən mətbuat konfransında




Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Bu gün biz onu müzakirə edirik ki, bölgədə davamlı, dayanıqlı sülh və təhlükəsizlik olsun. Bunun yeganə yolu isə əməkdaşlıqdır. Bizim məqsədimiz artıq üçtərəfli qaydada - Ermənistan və Rusiya ilə birlikdə kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin yaradılması və nəqliyyat baxımından bütün maneələri aradan qaldırmaqdır".

Vurğulanır ki, Zəngəzur dəhlizi Avrasiyanın nəqliyyat şəbəkəsində yeni mühüm nəqliyyat yolu olacaq və region ölkələri arasında iqtisadi və ticari münasibətlərə müsbət təsir göstərəcək. Bu dəhliz vasitəsilə Türkiyə özünün əsas iqtisadi tərəfdaşlarından biri olan Azərbaycana birbaşa quru yolu əldə edəcək. Bu, öz növbəsində, həmin ölkələr arasında ikitərəfli iqtisadi və turizm əlaqələrinin inkişafına kömək edəcək. Digər tərəfdən, Zəngəzur dəhlizi Türkiyə üçün Orta Asiyaya qapı rolunu oynayacaq ki, bu da Türkiyənin digər türk dünyası ölkələri ilə iqtisadi münasibətlərini möhkəmləndirməsinə imkan verəcək. Türkiyə, həmçinin Qars-Naxçıvan dəmir yolu vasitəsilə Naxçıvanın Türkiyə ilə birləşdirilməsi üzrə yeni layihə üzərində işləyir. Növbəti mərhələdə bu dəmir yolunun Zəngəzur dəhlizi ilə birləşdirilməsi Azərbaycan və Türkiyə arasında ikitərəfli ticari münasibətlərə yeni təkan verəcək.

Rusiya üçün bu dəhliz Cənubi Qafqaza və qonşu ölkələrə yüklərin daşınmasının əsas marşrutu ola bilərdi. Rusiya qatarları Azərbaycan ərazisi vasitəsilə Zəngəzur dəhlizinə, sonra isə oradan Ermənistana, Türkiyəyə, İrana və Cənubi Asiya ölkələrinə gedə bilərdilər. Bu dəhliz həm Türkiyə ilə ticari münasibətlərə müsbət təsir göstərəcək, həm də Rusiyaya Türkiyə vasitəsilə Yaxın Şərq ölkələri bazarlarına çıxmaq üçün alternativ marşrut təqdim edəcək. Zəngəzur dəhlizi, həmçinin Ermənistan üçün özünün digər işgüzar tərəfdaşı olan İranla dəmir yolu xətti əldə etmək fürsəti yaradacaq. Zəruri maliyyə vəsaitlərinin olmaması və xarici investisiyalar cəlb edilməsinin mümkünsüzlüyü ucbatından Ermənistan öz ərazisindən İrana dəmir yolu çəkə bilməyib. İndi İran ilə Ermənistan arasında yükdaşımalar yeni dəhliz vasitəsilə yerinə yetirilə bilər.

Çilinin "Infogate" agentliyi vurğulayır ki, Ermənistan öz qonşularına münasibətdə təqribən 30 il apardığı təcavüzkar siyasət əvəzinə regional əməkdaşlığı üstün tutarsa, Zəngəzur dəhlizinin yuxarıda sadalanan faydalarından yararlana bilər. Əgər Ermənistan iqtisadi blokadadan çıxmaq və iqtisadi inkişaf üçün imkanlar əldə etmək istəyirsə, o halda yeganə vasitə regional əməkdaşlığa qoşulmaqdır. Əks halda Ermənistanda işsizliyin, mühacirətin və yoxsulluğun yüksək səviyyəsi ilə müşayiət olunan eyni iqtisadi vəziyyət qalacaq ki, bu da respublikanı uzunmüddətli iqtisadi inkişaf perspektivlərindən məhrum edəcək.

Zəngəzur dəhlizinin yaradılması və bütün iqtisadi kommunikasiyaların bərpası, həmçinin xarici investorlar üçün regionun cəlbediciliyini artıracaq. Uzun illər ərzində Cənubi Qafqazda bir neçə iri enerji və nəqliyyat layihələrinin icrasına baxmayaraq, Ermənistan və Azərbaycan arasında münaqişə biznes mühitinə mənfi təsir edib və Ermənistan regional layihələrdən kənarda qalıb. İndi, münaqişənin bitdiyi bir vaxtda region ölkələrinin regionun iqtisadi potensialından tam istifadə, müxtəlif layihələrin icrası üçün əlavə investisiyaların cəlb edilməsi imkanı yaranıb ki, bu da münaqişə səbəbindən mümkün deyildi.

Zəngəzur dəhlizinin region ölkələrinə təqdim etdiyi bütün imkanlar göstərir ki, bu dəhlizin yaradılması regional nəqliyyat şəbəkələrinin genişlənməsinə gətirəcək və region ölkələri arasında qarşılıqlı iqtisadi münasibətləri stimullaşdıracaq. Dayanıqlı iqtisadi inkişaf və sülh, öz növbəsində, zərərli milli ideyaların yayılmasının və gələcəkdə yeni münaqişələrin yaranmasının qarşısını alacaq.

# Ermənilər tərəfindən dağıdılmış bütün dini məbədlərimiz bərpa olunacaq

**Prezident İlham Əliyev: "Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış"**



"Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarına səfəri çərçivəsində Hünərli kəndindəki Alban məbədi ilə tanış olarkən bildirib. Bildiyimiz kimi, əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, protestantlar, yəhudilər daxil olmaqla, müxtəlif etnik və dini qruplar əsrlərdir qarşılıqlı hörmət şəraitində yaşayır. Ölkə əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, Azərbaycanda dövlətin dəstəyi hesabına sinaqoqlar, məscidlər, kilsələr tikilib və bərpa olunub.

Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir. Bütün bunlarla yanaşı, paytaxtımızın mərkəzində erməni kilsəsi də var. Bu illər ərzində kilsəyə toxunulmayıb. Bu, xalqımıza məxsus olan dəyərdir, xalqımızın tolerantlığının göstəricisidir. Cənab Prezidentin qeyd etdiyi kimi, "İndi gəlsinlər, baxsınlar Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur... Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar. Bəlkə burada da heyvan saxlayıblar, burada da dəmir-dümür saxlayıblar, orada o dəmir-dümürlərin bir hissəsi qalıb. Ona görə hər kəs bunu görməlidir, bilməlidir. Əgər kimsə bundan sonra bizə qarşı hansısa əsassız ittiham irəli sürmək istəsə, o, cavabını alacaq, necə ki, bu günə qədər alıb".

**"ERMƏNİLƏR NECƏ Kİ, BİZİM MƏSCİDLƏRİMİZİ TƏHQİR EDİBLƏR, QƏDİM ALBAN MƏBƏDİNİ DƏ TƏHQİR ETMİŞLƏR"**

Erməni qəsbkarlarının ərazilərimizdə abidələrin saxtalaşdırılması istiqamətində apardığı işlər Ermənistanın özünü təsdiqləmək, tarixini, mədəniyyətini yaratmaq siyasətinə xidmət edib. 30 ilə yaxın işğal altında olan tarixi və memarlıq abidələrimiz olan Qarğabazar kəndində Cəlil türbəsi, Aşağı Veysəlli kəndində Mirəli türbəsi, Qocəhmədli kəndində məscid binası, Horadiz kəndində məscid binası, Horadiz kəndində İmamzadə türbəsi, Füzuli şəhərində məscid binası, Aşağı Aybasandı kəndində İbrahim türbəsi və s. onlarla belə tarixi əhəmiyyətli abidələrimiz dağıdılıb, məhv edilib, tanınmaz hala salınıbdır. Əlbəttə ki, Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənələrini, onun mədəni kökünü özündə ehtiva edir. "Bura qədim Alban məbədidir, Alban kilsəsidir, Hünərli kəndində yerləşir", deyən dövlət başçısı ermənilərin bu kilsəni də erməniləşdirmək istədiklərini və burada erməni dilində yazılar yazdıqlarını, ancaq buna nail ola bilmədiklərini bildirib: "İndi əgər bu, erməni kilsəsi olsaydı, bunu belə vəziyyətdə qoyardılarmı? Tövləyə oxşayır, elə bil ki, tövlədir, zibilxanadır. Bu, bizim qədim tarixi abidəmizdir, udi qardaşlarımızın məbədidir. Onlar buraya da gələcəklər. Ermənilər necə ki, bizim məscidlərimizi təhqir ediblər, qədim Alban məbədini də təhqir etmişlər. Amma biz bərpa edəcəyik. Bütün bu yazılar saxta yazılardır, sonradan yazılmış yazılardır. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaradıblar. Amma buna nail ola bilməyiblər, biz onları ifşa etmişik. Bu kilsənin - alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər".

**"ƏGƏR BU, ERMƏNİ KİLSƏSİ OLSAYDI, BUNU YAZARDI - "İQOR", "AŞA"?"**

Təbii ki, ermənilər onlara məxsus olan abidələri hifs edər, onu qoruyardılar. Amma təcavüzkar ermənilər Azərbaycan xalqının abidələrinə münasibətdə qəddardırlar, dağıdıcı və yırtıcıdırlar: "Baxın, buraya baxın, erməni kilsəsi olsaydı, bunları yazardılar? Yazardılar bunları? "Kamo", "Artur", nə bilim, "Marta". Öz kilsələrini belə təhqir edərdilər? Bax, bu daşların hamısı saxtadır. Bu, erməni saxtakarlığıdır. İçəridə də, gəlin buraya, əgər bu, erməni kilsəsi olsaydı, bunu yazardı - "İqor", "Aşa"? Uçurublar, dağıdıblar, qapını da yandırıblar". Baş verənlər nəyi göstərir? Əlbəttə ki, ermənilərin daş yaddaşımıza olan münasibətidir. Yeni tarix yazmaq, yaratmaq istəkləridir. Özünün zənginliyi olmayan başqasının da zəngin, qiymətli dəyərlərinə xor baxar. Bu, aksiomadır. Bütün dünya bu vəhşiliyi görür və onların yarıtmaz əməlləri, sahib olmadığı dəyərlərə qarşı zorakılıqları diqqətdən qaçmır. Əsilsiz, köksüz bir "xalq" başqa cür hərəkət də edə bilməz.

**"GƏLİN, BİR YERDƏ DEYƏK: "AZIX AZƏRBAYCANDIR!", "QARABAĞ AZƏRBAYCANDIR!"**

Daş dövrü insanlarının yaşayış yeri kimi məşhur olan Azıx mağarası da uzun illər düşmənin işğalı altında olub. Mağara 1960-cı ildə Məmmədəli Hüseynovun rəhbərliyi ilə AMEA-nın "Paleolit Arxeoloji Ekspedisiyası" tərəfindən aşkar olunmuşdur. Aparılmış tədqiqat işləri zamanı on mədəni təbəqə aşkarlanmışdır. Mağarada Quruçay mədəniyyəti, Aşel mədəniyyəti və Mustye mədəniyyəti dövründə yaşayış olduğu müəyyən edilmişdir. Mənbələrdən bəllidir ki, 1968-ci ilin iyununda Məmmədəli Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Azıx düşərgəsinin V təbəqəsinin IV horizontunda apardığı arxeoloji qazıntılar zamanı bir neçə daş məmulatı ilə birlikdə ibtidai insana məxsus çənə aşkar olunmuşdur.

Səfər çərçivəsində Azıx mağarasında olan dövlət başçısı buranın dünyanın ən qədim insanının yaşayış yerlərindən biri və Azərbaycan tarixinə məxsus, tarixi sərvətin olduğunu bildirib: "Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik. Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar".

Azərbaycan 44 günlük Vətən müharibəsində neçə illərə bərabər bir yol getdi, döyüş əməliyyatı apardı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə qalib oldu. 30 illik bir həsrətə son qoyuldu. Tarixi torpaqlarımız işğaldan azad olundu. Xalqımız üçün geniş yollar açıldı. Azərbaycan xalqının həmrəyliyi, xalq-iqtidar birliyi uğurları şərtləndirən amil olduğundan ölkəmizi daha da böyük nailiyyətlər gözləyir. Cənab Prezidentin vurğuladığı kimi, "Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: "Azıx Azərbaycandır!", "Qarabağ Azərbaycandır!".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ekspert: Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin inkişafı Moldova iqtisadiyyatı üçün yeni perspektivlər açar

***Birgə investisiya layihələrində Azərbaycan kapitalını Moldova iqtisadiyyatına cəlb etmək imkanlarını axtarmaq lazımdır. Ticarət əlaqələrini və mədəni əlaqələri inkişaf etdirməliyik. Bu sözləri AZƏRTAC-a Səmərəli Siyasət İnstitutunun direktoru, tarix elmləri doktoru, politoloq Vitaliy Andriyevski deyib.***



Onun sözlərinə görə, Azərbaycanla iqtisadi-ticarət əlaqələrin inkişafı Moldova iqtisadiyyatı üçün yeni perspektivlər açar. "Moldova Azərbaycan ilə əməkdaşlığı gücləndirməlidir. Azərbaycanın uğurlu iqtisadi inkişaf modeli Moldovada tətbiq edilə bilər", - deyə V.Andriyevski bildirib.

Moldovalı analitik hesab edir ki, Azərbaycanda məsuliyyətli hökumət, siyasi və iqtisadi sabitlik buranı xarici sərmayəçilər üçün cəlbedici ölkə edib.

# Paşinyan Xocavənddə Qaregin Njdenin abidəsinin sökülməsi tapşırığını verdi

ArmVoice erməni teleqram kanalı təcili xəbər yayaraq qeyd edir ki, Ermənistanın baş naziri Nikol Paşinyan Almaniya faşizminə xidmət göstərmiş erməni terrorçusu Qaregin Njdenin Xocavənddəki abidəsini sökmək tapşırığını verib. SİA-ya daxil olan məlumata görə, adıçəkilən erməni teleqram kanalının yazdığına görə, Paşinyan tapşırığını özünün sabiq mətbuat katibi Vladimir Karapetyan tərəfindən separatçı rejimə çatdırıb. Tapşırıq Araik Arutyunyana yönləndirilib və o da faşist Njdenin abidəsinin sökülməsinə razılıq verib. Belə ki, sözügedən məlumata görə, Nikol Paşinyan bu barədə qərar verərkən onun yaxın ətrafı verilən qərarın nəticəsinin yaxşı heç nə vəd etmədiyini bildiriblər.



"Lakin Paşinyan bəyan edib ki, onun üçün Əliyevlə münasibətləri yaxşılaşdırmaq ictimai rəyin düşüncəsindən daha önəmlidir", deyə ArmVoice yazır. Qeyd edək ki, daha əvvəlki məlumatlara görə, Qaregin Njdenin Xocavənddəki abidəsinin qalmasına Rusiya Sülhməramlılar Kontingenti də etiraz edib və bundan sonra həmin abidənin üzəri çadırla bağlanıb.

***Rövşən RƏSULOV***

# "Azərbaycan ərazisinə hərbçi göndərmək cəhdlərinə Ermənistan son qoymalıdır"

***Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Slovakiyanın Xarici və Avropa İşləri naziri İvan Korçokun birgə mətbuat konfransı keçirilib. SİA xəbər verir ki, Azərbaycan Respublikasına işgüzar səfəri çərçivəsində İvan Korçokun xarici işlər naziri Ceyhun Bayramovla birgə mətbuat kinfransı Xarici İşlər Nazirliyində keçirilib və konfransa nümayəndə heyətləri, qonaqlar, eləcə də jurnalistlər qatılıblar.***

Mətbuat konfransında əvvəlcə çıxış edən xarici işlər naziri Ceyhun Bayramov ilk öncə Slovakiyanın Xarici və Avropa İşləri naziri İvan Korçoku, nümayəndə heyətini, iştirakçıları salamlayıb və görüşün əhəmiyyətini vurğulayıb. Nazir qeyd edib ki, ikitərəfli formatda ölkələrimiz arasında münasibətləri müzakirə etməyi, eləcə də ölkələrimiz arasında dialoqu yüksək qiymətləndiririk.

Ceyhun Bayramov həmçinin diqqətə çatdırıb ki, 2019-cu ildə Slovakiyanın Azərbaycanda səfirliyi açılıb və münasibətlərin daha da yaxşılaşdırılmasını dəyərləndiririk. Azərbaycanın xarici işlər naziri nəzərə çatdırıb ki, iqtisadi sahə, tikinti, ticarət və digər sahələr olmaqla 11 Slovakiya şirkəti Azərbaycanda fəaliyyət göstərir.

"Hesab edirik ki, çox böyük inkişaf perspektivləri mövcuddur. Növbəti dövrdə bu istiqamətdə prinsipial addımlar atılacaq. Həmçinin humanitar sahədə də iş birliyinə nəzər yetirilib. Beynəlxalq platformada da əməkdaşlıq və perspektivlər müzakirə predmeti olub.

Vurğulamaq istərdim ki, xüsusi bir tarixi dövrü yaşayırıq, 30 iln davam edən işğal faktına son qoyulub və üçtərəfli bəyanatlar, imzalanan sənədlər regionda yeni inkişaf perspektivləri, imkanları yaradır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü daxilində dövlətlərarası münasibətlərin normallaşdırılmasını vacib hesab edirik. Hesab edirik ki, Slovakiya da əməkdaşlıq etmətyə hazırdır. Azərbaycan tərəfdaş ölkələrlə münasibətləri məhz dostluq prizmasında




qurur və bunun hər iki tərəfə töhvə verəcəyinə inanırıq", deyə xarici işlər naziri Ceyhun Bayramov bildirib.

Nazir qeyd edib ki, Üçtərəfli bəyanatların bir sıra müddəalarının uğurla yerinə yetirilməsinə baxmayaraq, bəzi məqamlarda Ermənistandan konstruktiv yanaşmanı görmürük: "Üçtərəfli bəyanata əsasən, Ermənistan Azərbaycan ərazilərindən bütün hərbi birləşmələrinin çıxarılmasına dair öhdəlik götürüb. Belə olan təqdirdə biz bir daha bu faktı qarşı tərəfin diqqətinə çatdırmaq istərdik ki, Azərbaycan ərazisinə hər hansısa hərbçilərin göndərilməsi cəhdlərinə son qoyulmalıdır", deyə xarici işlər naziri Ceyhun Bayramov bəyan edib. Daha sonra Slovakiyanın Xarici və Avropa İşləri naziri İvan Korçok çıxış edib və öz fikirlərini, münasibətini bölüşüb. Mətbuat konfransı jurnalistləri maraqlandıran məsələlərin müzakirəsi ilə yekunlaşdırılıb.

*İnam Hacıyev*

# Sağlam yaşayış, xoşbəxt ömür, yoxsa öldürücü virus?



## Seçim sizindir, həzərat

Tarixən dünyamız müxtəlif öldürücü xəstəliklərin və dəhşətli müharibələrin şahidi olub. Baş verən xəstəliklərdən və müharibələrdən milyonlarla insan həyatını itirib, şikəst və əlil olaraq həyatlarını mənəvi sarsıntılar içində yaşamaq məcburiyyətində qalıb. Gözəgörünməz düşmən hesab olunan xəstəliklər müharibələrdən daha amansız olduğunu demək olar. Çünki epidemiya xarakterli xəstəliklər gözlənilmədən insanları haqlayır və onların həyatlarına son qoyur. Hələ 2500 il əvvəl Hippokrat qələmə aldığı əsrində qripi "yoluxucu öskürək epidemiyası" kimi təqdim edirdi. Ümumilikdə, bəşəriyyət (1-20 əsr-red) müxtəlif epidemiyalara yoluxma səbəbindən 800 milyona yaxın insan həyatını itirib. Vəba xəstəliyinin bəşəriyyətin inkişafına vurduğu ziyanın acı nəticələrini bu gün də insanlıq yaşamaqdadır. 1347-1351-ci illərdə Avropa əhalisinin 40 faizi vəbanın qurbanı olmuşdur. Ən böyük ziyanı isə Böyük Britaniya çəkmişdir. Bu bölgənin 12 milyon əhalisi vəba xəstəliyinə yoluxmaları səbəbindən həyatlarını itirmişlər. Hindistanın, Orta Şərqin və Çinin 80 milyona yaxın əhalisi vəbanın qurbanı olmuşdur. Deyilənlərə və yazılanlara görə,1534-cü ildə "İspan qripi"nin geniş yayılması səbindən Amerika qitəsində yaşamış hinduların demək olar ki, hamısı qırılmışdır. "Kolera" epidemiyasının yayıldığı 1860-cı ildən 1961-ci ilə qədər olan dövrdə dünyanın 60 milyon əhalisi bu virusun qurbanı olmuşdur. Hinduların həyatına son qoymuş "İspan qripi" sonradan Avropa və Asiya qitələrində peyda olmuş və yalnız 1918-1920-ci illərdə 50 milyon insanın həyatına son qoymuşdur. Yazılı məlumatlara görə, "İspan qripi"nin yayıldığı 6 ay ərzində 25 milyon insan həyatı ilə vidalaşmalı olub. 1980-ci ilin əvvəlindən isə daha bir ölümcül xəstəlik - QİÇS peyda oldu. ÜST-nın məlumatına görə, bu xəstəlikdən bu günə qədər 30 milyondan çox insan həyatını itirib. BMT-nin yaydığı hesabata görə, hal-hazırda 58 milyon insan HİV daşıyıcısıdır, hər il 5 milyon insan bu virusa tutulur və 3 milyon insan QİÇSdən ölür.

## Bu günə qədər bəşəriyyət xəstəliklərdən 800 milyon insan itirib

Müasir dövrümüzdə "Su çiçəyi" , "Ebola", "Quş qripi" kimi xəstəliklərin mövcudluğu barədə məlumatlara rast gəlmişik. Nəhayət, 2020-ci ilin əvvəlindən dünya daha bir xəstəliyin- "Covid-19" koronavirus epidemiyasının yayılmasından və böyük öldürücü gücə malik olmasından xəbər tutdu. Dünya Səhiyyə Təşkilatının yaydığı məlumata görə, bu günə qədər 120 milyona yaxın insan bu xəstəliyə tutulub, 2 milyon 800 min insan isə virusun qurbanı olub. Bəzi ölkələrin virusun qarşısının alınması üçün vaksinlər istehsal etmələri və tədricən insanları peyvəndləmələri o ümidləri yaradır ki, yaxın vaxtlarda bəşəriyyət növbəti öldürücü epidemiya bəlasından xilas ola biləcək. Yəni bu fakt bir daha onu təsdiq edir ki, ən dəhşətli xəstəliklər, epidemiyalar məhz tibbin, elmin inkişafı ilə aradan qaldırılır. Bununla belə gigiyenanın rəhbər tutulması, normal qidalanma virusun yayılmasının qarşısını alan amillərdəndir. Təbii ki, virusa qarşı mübarizə də effektiv nəticə əldə etmək üçün həm də, sosial məsafə qaydalarına riaət olunmalıdır. Dünya Səhiyyə Təşkilatının tövsiyyələrinə və Azərbaycan Respublikasının Nazirlər kabineti yanında Operativ Qərargahın tətbiq etdiyi qaydalara görə, virusa yoluxmamaq üçün vətəndaşlar əsasən evdə olmalı, kütləvi tədbirlərə, qonaqlıqlara, gəzintilərə getməməli, ictimai nəqliyyatdan istifadə, mağazalarda alış-veriş edərkən ehtiyatlı davranmalıdırlar. Küçəyə çıxarkən mütləq qoruyucu maskadan istifadə olunmalıdır. Nəzərə almaq lazımdır ki, irəli sürülən tələblər, tətbiq olunan qaydalar insanları xəstəlikdən qorumaq məqsədi daşıyır. Bu baxımdan, hər bir ölkə vətəndaşı bu çətin vaxtda fərdi məsuliyyət nümayiş etdirərək tətbiq olunan karantin qaydalarına ciddi riayət etməli, özünü və ailə üzvlərini qorumağa çalışmalıdır. Qaydalara riayət olunsa, nə dövlət, nə cəmiyyət, nə də əhali zərər görməz. Birmənalı şəkildə demək olar ki, ölkəmizdə koronavirusla bağlı məsələ ilk gündən diqqət mərkəzindədir. Nazirlər Kabinetinin sərəncamı ilə 2020-ci ilin 30 yanvar tarixində "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" təsdiq edilib və nəzərdə tutulmuş tədbirlər həyata keçirilir. Eyni zamnda, epidemiyanın ölkəmizdə yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradılıb.

## Sosial şəbəkələrdə peyvəndlə bağlı ağzıgöyçəklik edirlər

Azərbaycan "Covid-19" virusunun qarşısını almaq məqsədilə Pekində yerləşən Sinovac şirkətinin "CoronaVac" peyvəndini almağı daha məqbul hesab edib. "Sinovac" peyvəndinin əsas üstün cəhətlərindən biri standart soyuducuda 2-8 dərəcədə saxlanıla bilməsidir. Artıq ölkə əhalisinə vaksinasiya başlayıb. Məlumatlara istinadən demək olar ki, Azərbaycan Çindən 2 milyon insan üçün 4 milyon doza alıb. Vaksin bir insana iki dozada vurulacaq. Dozalararası müddət 21 gün müəyyənləşdirilib. Təəssüf hissi ilə bildirmək lazımdır ki, bəzi vətəndaşlar vaksin olunmaq istəmirlər. Bu azmış kimi sosial şəbəkələrdə peyvəndlə bağlı bir növ ağzıgöyçəklik edirlər. Yazırlar ki, vaksin insanları kodlaşdırmaq, bir növ xarici kəşfiyyat orqanları tərəfindən idarə edilməsi üçün vurulur. Maraqlıdır ki, elə insanlar var ki, sosial şəbəkələrdə yayılan və yazılan cəfəng yanaşmalara inanırlar. Bundan çıxış edərək, vaksin barədə öz iddialarını əlavə edib, tirajlayırlar. Özləri və ya yaxınları virusa yoluxub, çabalar edəkən dövlət qurumlarını qınayırlar. Ancaq başa düşmürlər ki, yuxarıda qeyd etdiyim kimi, dövlət pandemiya dövründə hansı addımı atır və qərarlar qəbul edirsə, hamısını insanların sağlamlığının qorunması üçün edir. Söz yox ki, pandemiya dövründə müəyyən sahələrdə qapanmaların tətbiq edilməsi əhalinin müəyyən təbəqəsinin maddi durumuna təsir edir. Lakin nəzərə almaq lazımdır, dövlətimiz bu kimi məsələləri də nəzərə alıb və həssas təbəqə qrupuna yardımlar göstərir.

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, hökumət koronavirus böhranının təsirlərini azaltmaq üçün bütün zəruri tədbirləri görür. Bunun üçün cənab Prezidentin göstərişi ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb. O qeyd edib ki, Azərbaycan dövləti də bu qlobal şokun təsirini azaltmağa, daha az itki verməklə dövrü geridə qoymağa çalışır. Bunun üçün vacib şərtlərdən biri də virusun özündən də sürətlə yayılan informasiya ilə manipulyasiya etməməkdir. Çünki panika bəzən problemin miqyasını dəfələrlə artırır. Bir sözlə, görünən fakt ondan ibarətdir ki, Azərbaycan dövləti pandemiyanın insan sağlamlığına vura biləcəyi zərəri aradan qaldırmağa və iqtisadi problemləri minimuma endirmək üçün lazım olan bütün tədbirləri ən yüksək səviyyədə edir. Qalır ancaq bu məsələlərin həllində vətəndaş məsuliyyəti. Vətəndaşlar öz məsuliyyətlərini dərk edib, qaydalara riayət edərlərsə, xalqımız və dövlətimiz bu ağır, üzücü problemdən də uğurla çıxacaq. Bu baxımdan, sağlamlığınız öz əlinizdədir, həzərat!

*İ.ƏLİYEV*

# Azərbaycan Ermənistana kimin qazını ötürəcək?



Martın 16-da SOCAR və "Qazprom Export" şirkəti Rusiya qazının nəqli üzrə qısamüddətli müqavilə imzalayıb. SİA xəbər verir ki, bu barədə Rusiya mətbuatı yazır və qeyd edir ki, razılaşma müqaviləsi "Şimali Qafqaz - Zaqafqaziya" qaz kəmərində planlı təmir işləri zamanı Ermənistandakı istehlakçılara qaz tədarükünün (Azərbaycan ərazisi ilə - red.) davam etdirilməsi üçün əldə edilib.

Belə ki, Azərbaycanla Rusiya tərəfinin razılaşmasına görə sözügedən qaz kəmərinin Rusiya hissəsində aparılacaq planlı profilaktik təmir işləri zamanı mavi yanacaq istehlakçılara Azərbaycan ərazisi ilə Gürcüstan sərhədinədək çatdırılacaq. Qeyd olunur ki, təmir işləri üç həftəyə yaxın davam edə bilər və işlər başa çatdırıldıqdan sonra qazın nəqli əvvəlki marşrutla, yəni Rusiya və Gürcüstan sərhədindən Ermənistana nəql edilməkdə davam etdiriləcək.

SOCAR-dan da qeyd olunub ki, "Şimali Qafqaz - Zaqafqaziya" magistral boru kəmərində müvəqqəti təmir işləri aparılır və bununla əlaqədar Rusiya tərəfi özünə məxsus olan təbii qazın Azərbaycan ərazisindən Gürcüstan ərazisinə tranzit nəqli ilə bağlı Azərbaycana müraciət edib. Nəticədə müvafiq ödəniş müqabilində Rusiya qazının Azərbaycan üzərindən Gürcüstana müvəqqəti tranzit nəqli ilə bağlı razılıq əldə olunub.

*Rövşən*

# Azərbaycandakı siyasi partiyaların rəhbərləri və bir sıra politoloqlar işğaldan azad olunmuş Ağdam rayonuna səfər ediblər















Martın 17-də Azərbaycandakı siyasi partiyaların rəhbərləri və bir sıra politoloqlar işğaldan azad olunmuş Ağdam şəhərində Qarabağ xanlarının türbələrinin də yerləşdiyi İmarət qəbiristanlığını ziyarət ediblər.

AZƏRTAC-ın məlumatına görə, səfər iştirakçılarına məlumat verilib ki, qəbiristanlıqda Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın, həmçinin İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, Mehdiqulu xanın qızı, şairə Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. 1993-cü ildə Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini, Natəvanın qəbirüstü abidəsini də dağıdıblar.

Bildirilib ki, vaxtilə "Qarabağ" futbol klubunun ev oyunlarını keçirdiyi "İmarət" stadionu da yağı düşmən tərəfindən dağıdılıb. Əvvəllər bu stadionda el şənlikləri, festivallar, incəsənət xadimlərinin konsertləri də təşkil edilərdi. Natəvanın yaxınlıqda ucaldılmış heykəlindən əsər-əlamət qalmayıb.

Nümayəndə heyəti Ağdam Çörək muzeyinin dağıntıları ilə də tanış olub. Bildirilib ki, dünyada ikinci hesab edilən bu muzey cəmi 9 il - 1983-cü ildən 1992-ci ilədək fəaliyyət göstərib. Muzeydə nadir eksponatlar - taxılçılıqla bağlı arxeoloji tapıntılar toplanmışdı. Eksponatlar arasında daşa dönmüş dənlər, əl dəyirmanları, qab-qacaq, qədim kitablar, əlyazmalar, əkinçilik alətlərindən (oraq, xış, taxıldöyən vərdənə və s.) bəhs edən müxtəlif dəyərli nümunələr olub.

Sonra siyasi partiya rəhbərləri və politoloqlar Ağdamın I Şəhidlər xiyabanını ziyarət ediblər. Məlumat verilib ki, burada I Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib. Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun qəbri də buradadır. Ermənilər xislətlərinə uyğun olaraq, Şəhidlər xiyabanındakı qəbirlərin əksəriyyətini qərət məqsədilə qazaraq dağıdıblar.

Ağdam rayonunda səfərdə olan siyasi partiyaların rəhbərləri və politoloqlar martın 17-də həmçinin Cümə məscidini ziyarət edib, Dram Teatrının, Çay evinin dağıntılarına baxıblar. Səfər iştirakçılarına məscidin tarixi və ermənilərin törətdiyi barbarlıq barədə məlumat verilib. Bildirilib ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər tərəfindən dağıntılara məruz qalan Ağdam məscidinin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb.

Diqqətə çatdırılıb ki, Ağdamda törədilən dağıntılar erməni vandalizminin və barbarlığının bariz nümunələridir. Ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da ölkəmizin tarixi-mədəni irsinə qarşı misli görünməmiş vandalizm aktları həyata keçiriblər. Rayondakı bütün abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir olunub, bəziləri isə erməniləşdirilib.

Ermənilər işğal etdikləri ərazilərdə azərbaycanlılara məxsus tarixi və dini irsi silməyə çalışsalar da, buna nail olmayacaqlar. Azad edilmiş ərazilərin tamamilə yenidən qurulacağını bildirən Azərbaycan Prezidenti İlham Əliyev Ağdam məscidinin qarşısındakı çıxışında deyib: "Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik".

Qeyd edək ki, siyasi partiya rəhbərlərini və politoloqları Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev müşayiət edir.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

### Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağdan həm daxili, həm xarici auditoriya üçün verdiyi mühüm mesajlar

# “Dırnaqarası “Artsax dövləti” cəhənnəmə getdi”

Xəbər verdiyimiz kimi, martın 16-da Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva işğaldan azad edilmiş Qarabağ bölgəsində səfərdə olublar. Səfər zamanı dövlət başçısı Fizuli və Xocavənd rayonlarını, həmçinin Şuşa şəhərini ziyarət edib.

Səfər zamanı Azərbaycan Prezidenti həm daxili, həm xarici auditoriya üçün mühüm mesajlar verib. İşğal zamanı Ermənistanın bölgədəki şəhər və kəndləri tamamilə dağıtmasına toxunan İlham Əliyev deyib ki, düşmən bu bölgədə bizim tarixi irsimizi silmək istəsə də, buna nail ola bilmədi. Yol boyunca bütün yaşayış məntəqələrinin dağıdıldığını deyən dövlət başçısı bildirib ki, bu dağıntılar müharibədən sonra baş verib: “1-ci Qarabağ müharibəsi dövründə bu qədər dağıntılar olmamışdır, ola da bilməzdi. Məhz işğal dövründə mənfur düşmən bizim şəhərlərimizi bu hala salıb... Füzuli şəhərindən əsər-əlamət qalmayıb. Şəhər yoxdur, ermənilər dağıdıblar. İşğal dövründə gəlib bizim binalarımızı söküb, daşlarını, damlarını aparıblar, oğru kimi, talançı kimi. Bu gün də Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?! Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı-daş üstündə qoymayıb. Görün, yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, dırnaqarası “Artsax dövləti”- cəhənnəmə getdi. “Dövlət” idisə, bəs, niyə daş-daş üstə qoyulmayıb? Çünki bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır”.

Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldıran Ali Baş Komandan ictimaiyyətdə düzgün anlaşılmayan bir məqama da toxunub: “Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilmişdir. Bəziləri müharibənin yekunlarını şərh edərkən deyirlər ki, Azərbaycan 7 rayonu azad edib, bu, belə deyil. Biz 7 rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik”.

Məlum olduğu kimi, ermənilər Qarabağdakı qədim alman məbədlərini özününküləşdirirərək dünyaya bu ərazinin qədim erməni torpağı olduğunu deyirdilər. Tuğ və Hünərli kəndlərindəki Alban məbədi ilə tanış olan Prezident İlham Əliyev erməni saxtakarlığını ifşa edib: “Bura qədim Alban məbədidir. Ermənilər bu kilsəni də erməniləşdirmək istəmişlər və burada erməni dilində yazılar yazmışlar, ancaq buna nail ola bilməmişlər. İndi əgər bu, erməni kilsəsi olsaydı, bunu belə vəziyyətdə qoyardılarmı? Tövləyə oxşayır, elə bil ki, zibilxanadır. Bu, bizim qədim tarixi abidəmizdir, udi qardaşlarımızın məbədidir. Onlar buraya da gələcəklər. Ermənilər necə ki, bizim məscidlərimizi təhqir ediblər, qədim Alban məbədini də təhqir etmişlər. Amma biz bərpa edəcəyik. Bütün bu yazılar saxta yazılardır, sonradan yazılmış yazılardır. Bu kilsənin- alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar.

İndi gəlsinlər, baxsınlar Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur. Bu qədim Alban kilsəsini görərlər bir müddətdən sonra biz necə təmir etdirəcəyik. Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir. Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi 2-i qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar... Baxın, erməni kilsəsi olsaydı, bunları yazardılar? “Kamo”, “Artur”, nə bilim, “Marta”. Öz kilsələrini belə təhqir edərdilər? Bax, bu daşların hamısı saxtadır. Bu, erməni saxtakarlığıdır. İçəridə də yazıblar, əgər bu, erməni kilsəsi olsaydı, bunu yazardı - “İqor”, “Aşa”? Uçurublar, dağıdıblar, qapını da yandırıblar. Bundan sonra Azərbaycan dövləti bu Alban məbədini qoruyacaq”.

Tuğ kəndində olan dövlət başçısı kəndin hazirki vəziyyətinə toxunan dövlət başçısı deyib: “Ermənilərin dağıtdıqları Tuğ kəndinin məktəbi. Görün, nə günə qoyublar. Sonra da deyirdilər ki, Tuğ erməni kəndidir. Erməni kəndi olsaydı, bunu dağıdardılar? Tuğ kəndi həmişə Azərbaycan kəndi olub, bundan sonra da olacaq. Əminəm ki, yaxın gələcəkdə Tuğun sakinləri öz doğma kəndlərinə qayıdacaqlar... Dağıdılmış bütün kəndləri, şəhərləri bərpa edəcəyik”.

Prezident İlham Əliyev Azıx kəndi yaxınlığında yerləşən ən qədim insan məskənlərindən olan məşhur Azıx mağarasına baxarkən ermənilərin burada etdiyi vandalizm akıtndan danışıb: “Bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik”.

Şuşa şəhərində olarkən Prezident şəhərin tarixi, bu günü və gələcəyi ilə bağlı vacib mesajlar verib: “Görün, düşmən Şuşanı nə günə salıb. Ermənilər burada demək olar ki, bir dənə də bina tikməyiblər. Ancaq Sovet vaxtında Azərbaycan tərəfindən tikilmiş binalardan istifadə etmişlər, azərbaycanlıların evlərində yerləşmişlər. Bütün bu evlər Sovet vaxtından qalan evlərdir... Baxın, burada bir dənə normal vəziyyətdə bina var, yoxsa yox?

Ermənilər Şuşanı erməni şəhəri kimi qələmə vermək istəyirlər. Halbuki, Şuşanın təməlini qoyan Pənahəli xan olub və həmişə burada azərbaycanlılar yaşayıb. Yaxşı, erməni şəhəri idisə, niyə əl gəzdirməmisiniz?. Şuşa kimi mənzərəsi, təbiəti olan şəhəri belə günə salmaq vəhşilikdir. Azərbaycanlıların evlərini dağıdıblar və hesab edirdilər ki, bu işğal əbədi olacaq. Biz işğala son qoyduq. Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz”.

Dövlət başçısı şəhərdə ilk növbədə bərpa olunacaq tarixi tikililərdən danışıb: “Vaqifin məqbərəsində bərpa işləri bu gün başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Məscidlərin bərpası ilə bağlı artıq müvafiq göstərişlər verildi. Bulaqları da bərpa edəcəyik. Otuz il ərzində ermənilər bütün bulaqlarımızı quruddular. Şuşanı quran, Şuşanı salan Pənahəli xan özü üçün burada saray tikdirib. İndi görün, ermənilər nə günə salıblar bu tarixi abidəni. Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edib. Bütün beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər bunu. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər.

Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir. Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam”.

Erməni vandalları işğal zamanı Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansaray tarix-memarlıq kompleksini də dağıdıblar. Şəhərdə erməni vəhşiliyi ilə üz-üzə qalan tikililərdən biri də Şuşa Dövlət Rəsm Qalereyasının binasıdır. Qalereya 1982-ci ildə yaradılıb və işğal dövrünədək - 1992-ci ilədək fəaliyyət göstərib.

Prezident deyib ki, bu tarixi tikililər tamamilə yenidən bərpa ediləcək.

Sovet dövründə tikilmiş “Qarabağ” mehmanxanasında aparılacaq təmir-bərpa işləri ilə tanış olan İlham Əliyev deyib ki, burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaq.

Şuşa Xalça Muzeyinə də baş çəkən dövlət başçısı deyib ki, Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan bu muzey də işğal zamanı ciddi ziyan görüb və tezliklə bərpa olunacaq.

Dövlətimizin başçısı Şuşada “Park otel”in yerləşəcəyi binaya da baxıb. Bura keçmiş sanatoriya korpusu olub: “İşğal dövründə buradan kiçik otel kimi istifadə etmişlər, amma çox primitiv qaydada. Çox biabırçı bir şərait var idi. İndi yenidən bərpa edilir və bu il otel artıq istifadəyə veriləcəkdir”.

Ümumiyyətlə, Prezidentin Qarabağ bölgəsinə son səfəri və oradan həm dünya ictimaiyyətinə, həm ölkə ictimaiyyətinə verdiyi mesajlar erməni təbliğatına növbəti kəskin zərbə oldu.

Bundan əvvəl isə xarici jurnalistlərin, politoloqların bölgəyə səfəri təşkil olunub və onlar burada gördüklərini müxtəlif ölkələrdə yazıb, danışıblar ki, bu da erməni təbliğatına ciddi zərbə olub.

Bir neçə gün əvvəl isə, ölkə mətbuatının rəhbərlərinin, həmçinin müxalifət düşərgəsində təmsil olunanların Ağdama səfərinin təşkil olunması bu istiqamətdə ümummilli vahid mövqenin ortaya qoyulmasını göstərdi. Bu səfər ümummilli məsələlərdə hakimiyyətlə müxalifətin ümumi dövlət mənafeyindən və milli maraqlardan birgə çıxış etməsi istiqamətində daha bir vacib addım sayılır. Müharibə zamanı daha da möhkəmləniş xalq-iqtdar-müxalifət birliyi bu kontekstdə davam edir. Qalib ölkədə belə də olmalıdır.

Ermənistanda isə tam əksinədir. İqtidarla müxalifər bir-biri ilə döyüşür, küçə aksiyaları dayanmır, günahı bir-birinin üzərinə atmaqla ölkənin müharibədə məğlub olmaqla düşdüyü ağır siyasi, iqtisadi, sosial vəziyyəti daha da pisləşdirirlər.

Bax, 2 ölkənin, 2 xalqın, 2 dövlətin müqayisəsində təkcə bu faktlar bəs edir ki, kimin kim olduğunu bütün dünya bilsin. Azərbaycan həm müharibədən əvvəl, həm müharuibə dövründə həm də müharibədən sonra özünü ləyaqətli dövlət, sülhsevər ölkə, mədəni cəmiyyət kimi dünyaya göstərdi. Ermənistan isə bunun tam əksini göstərdi. İndi bütün dünya bu 2 dövlətin fərqini daha aydın başa düşür.

Şübhə yoxdur ki, bu Qələbə və ondan sonrakı proseslər Azərbaycanın daha da qüdrətlənməsinə, dünyada nüfuzunun artmasına, abad və sosial rifah ölkəsi kimi dünyada öz layiqli yerini tutmasına gətirib çıxaracaq.

**Elçin Bayramlı**

# “Azərbaycanda çoxpartiyalılıq sistemi- quruluşu və inkişafı”

***Siyasi partiyaların mövcudluğu hər bir cəmiyyətdə demokratiyanın və siyasi plüralizmin başlıca göstəricisidir. Siyasi partiyaların yaranması prosesinin tarixi göstərir ki, cəmiyyətin siyasi sisteminin ən mühüm elementlərindən olan partiyaların meydana çıxması siyasi şüurun inkişafı və demokratik ənənələrin bərqərar edilməsinin nəticəsi olmuşdur. Cəmiyyətdə real qüvvə kimi çıxış edən orta təbəqələrin siyasi fəallığının artması, vətəndaşların seçki hüquqlarının genişlənməsi, xalqların milli mənlik şüurunun inkişafı siyasi partiyaların formalaşmasına təsir göstərən başlıca amillər olmuşlar.***



Tarixdən məlum olduğu kimi, ilk siyasi partiyaların yaranması Avropada baş vermişdir. XİX əsrdə İngiltərədə “Seçkiləri qeydə almağın liberal yoldaşlığı” və Almaniyada “Ümumalman fəhlə ittifaqı”nın təsis edilməsi siyasi partiyalar tarixinin başlanğıcı oldu. XX əsrin əvvəllərindən etibarən isə siyasi partiyalar artıq müəyyən struktura, sosial bazaya və siyasi məqsədlərə malik olan təşkilatlar kimi fəaliyyət göstərirdilər. Siyasi partiyaların yaranması Avropa cəmiyyətlərinin demokratik inkişafına təkan verdi, sosial-iqtisadi tərəqqi üçün yeni zəmin yaratdı, sadə vətəndaşların hakimiyyətin fomalaşmasında iştirak imkanlarını genişləndirdi. Cəmiyyətin demokratik inkişafının nəticəsi kimi meydana çıxan siyasi partiyalar özləri bu inkişafa yeni məzmun və stimul verdi.

Müasir politiologiya elmi siyasi partiyaların məhz demokratik ənənələrin bərqərar edilməsinin nəticəsi kimi meydana çıxdığını artıq təsdiq etmişdir. Siyasi plüralizmin məhdudlaşdırıldığı cəmiyyətdə siyasi partiyaların olduğunu dair faktlar, əlbəttə ki, mövcuddur. Lakin bu cür sistemlərdə siyasi partiyaların varlığı formal xarakter daşıyır, onlar ictimai rəyin ifadəçisinə çevrilə bilmirlər. Siyasi partiyalar yalnız demokratik cəmiyyətlərdə ictimai inkişafın mühərrikinə çevrilir, vətəndaşların sosial rifahının təmin olunması, insanların daha yaxşı yaşaması üçün yeni qaydaların müəyyənləşdirilməsi, ölkənin tərəqqisi üçün təkan verir.

Çoxpartiyalı sistem siyasi parlamentdə yerlərin əksəriyyətini götürmək üçün eyni şanslara malik çoxlu sayda partiyanın iştirak etdiyi sistem kimi qiymətləndirilir. Çoxpartiyalı sistem siyasi proseslərə real şəkildə iştirak etmək imkanına malik bir neçə və ya çoxlu sayda partiyanın mövcudluğunu təmin edir. Çoxpartiyalı sistemin əsasını siyasi partiyaların yaranma və fəaliyyət azadlığına dair konstitusiya prinsipi təşkil edir. Burada çox mühüm bir məqama diqqət yetirmək lazımdır ki, çoxpartiyalı sistem anlayışı çoxpartiyalılıq anlayışı ilə eyni məzmun kəsb etmir. Siyasi elmdə çoxpartiyalılıq bir ölkədə müxtəlif partiyaların mövcudluğu kimi səciyyələndirilir. Lakin bu zaman onlar hakimiyyətə gəlmək üçün eyni imkana malik olmurlar. Çoxpartiyalı sistemdə isə bütün partiyaların hakimiyyətə gəlmək və parlamentdə təmsil olunmaq şansları bərabər olur. M.Dyuverje partiya sistemlərini xarakterizə edərək yazırdı ki, siyasi partiya sistemləri ölkənin siyasi arenasında uzun müddət mövcud olan, hakimiyyətin bölünməsində və reallaşdırılmasında fəal iştirak edən partiyaların “sabit ansamblı”dır.

Nəzərə almaq lazımdır ki, çoxpartiyalı sistem formalarından asılı olmayaraq, demokratik cəmiyyət quruculuğunun vacib elementlərindən biridir. O, vətəndaşlara ölkənin gələcək inkişafı ilə bağlı seçim imkanı verir, cəmiyyətlə dövlət arasında hər iki tərəfin maraqlarını özündə birləşdirən, müxtəlif sosial təbəqələrin və siyasi qüvvələrin mənafelərini ifadə edən ümumi bir harmoniya yaradır. Bu harmoniya siyasi sistemin inkişafının bazasını, ana xəttini təşkil edir. Dövlət idarəetmə aparatı ilə sadə vətəndaşlar arasında məsafəni yaxınlaşdırır. Hər bir vətəndaşa dövlətə və siyasi sistemin fəaliyyətinə təsir imkanları verir.

Azərbaycanda çoxpartiyalı sistemin mahiyyətinin araşdırılması bir neçə mühüm məqama görə aktual siyasi problem kimi qiymətləndirilə bilər. Əvvəla nəzərə almaq lazımdır ki, Azərbaycan demokratik cəmiyyət quruculuğuna yeni qədəm qoymuş bir dövlət kimi yeni siyasi sistemə keçidin özəlliklərini, mənfi və ya müsbət təsirlərini öz üzərində hiss etməli olmuşdur. Bu baxımdan Azərbaycan üçün yeni olan çoxpartiyalı sistemin xüsusiyyətlərinin öyrənilməsi olduqca mühüm əhəmiyyətə malikdir. Şübhəsiz ki, Azərbaycanda çoxpartiyalı sistemin formalaşması prosesi müəyyən ənənəyə malikdir. Lakin bu ənənə ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra tamamilə aradan qaldırıldı. Məhz bu baxımdan əsrin sonlarında öz müstəqilliyini yenidən bərpa etmiş xalqımız bir sıra ciddi siyasi problemləri də həll etmək zərurəti qarşısında qalmışdır. Bu problemlərdən biri də demokratik siyasi sistemə keçidin olduqca mürəkkəb və çoxşaxəli şərtlərinin yerinə yetirilməsi ilə bilavasitə bağlı olmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycanda çoxpartiyalı siyasi sistemin formalaşmasının politoloji əsaslarının öyrənilməsini zəruri edən digər bir mühüm amil də ondan ibarətdir ki, ölkəmiz uzun müddət totalitar Sovet sisteminin təsiri altında yaşadığından cəmiyyətin sovet düşüncə tərzinin demokratik şüura transformasiyası bir sıra çətin problemləri meydana çıxarmış oldu. Bu problemlərdən biri də insanların və bütövalükdə cəmiyyətin siyasi plüralizmə şüur və psixologiya bıxımından uyğunlaşması ilə bilavasitə bağlı olmuşdur. 70 il ərzində cəmi bir partiyanın mövcudluğuna və alternativsizliyinə vərdiş etmiş Azərbaycan cəmiyyətində müxtəlif ideologiyaları təbliğ edən çoxsaylı siyasi təşkilatların yaranması müəyyən ictimai çaşqınlığa səbəb oldu. Təsadüfi deyildir ki, hələ indinin özündə də partiyaların sayının çoxluğu cəmiyyətin müxtəlif təbəqələrində təəccüblə qarşılanmaqda davam edir. Burada bütün məsuliyyəti cəmiyyətin çoxpartiyalı sistem haqqında təsəvvürlərinin məhdudluğu üzərinə yükləmək doğru deyil. Çünki Azərbaycanda çoxpartiyalı sistemin formalaşması müəyyən qüsurlarla müşaiyət olundu və ifrat çoxpartiyalılığa gətirib çıxardı. Ancaq etiraf etmək lazımdır ki, partiyaların sayının çoxluğu bəzi məqamlarda sosiumun seçimini çətinləşdirir, onu çaşdırır, siyasi qüvvəni xidmət etdiyi ideologiyaya görə deyil, özünün məhdud siyasi təsəvvürləri kontekstində qiymətləndirməsini şərtləndirir. Azərbaycanda çoxpartiyalı sistemin formalaşması prosesi müstəqilliyin əldə edilməsi və milli dövlət quruculuğu ilə eyni vaxta təsadüf etdiyindən bu iki mühüm amilin təsiri ilə müşaiyət edilmişdir. Başqa sözlə desək, Azərbaycanda çoxpartiyalı sistemin formalaşması milli demokratik dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi çıxış etməkdədir.

*Ardı var.*

***Xatirə Əliyeva***
***Əməkdar jurnalist***

# Xaliq Musayev: “YAP nəinki Azərbaycanın, həmçinin Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır”

“Zamanın sınaqlarından çıxmış, xalqın etimadını layiqincə doğrultmuş, Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanımızın firavan gələcəyinin dünəni, bu günü və gələcəyi naminə öz fəaliyyətini göstərən siyasi partiyadır. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı Ulu Öndərimiz Heydər Əliyev demişdir: “Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır”. Bunu YAP Laçın rayon təşkilatının sədr müavini, aparat rəhbəri Xaliq Musayev SİA-ya açıqlamasında bildirib.

X.Musayev onu da bildirib ki, Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, həmçinin Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamız böyük ənənələrə malikdir. VII qurultay Yeni Azərbaycan Partiyasının həyatında dönüş nöqtəsi hesab edilə bilər. Bu isə ölkəmizin Vətən müharibəsində qazandığı möhtəşəm Zəfərdən sonra yaranan yeni reallıqlardan irəli gəlir: “Sevindirici haldır ki, YAP-ın VII qurultayı cəmiyyətimizdəki yeniliklər və pozitiv dəyişikliklər fonunda keçirildi. Bu qurultayaqədərki dövrün ən böyük hadisəsi isə təbii ki, torpaqlarımızın işğaldan azad olunması idi. Təsadüfi deyil ki, Prezident, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev VII qurultayda giriş nitqinə də məhz Vətən müharibəsində qazanılan Qələbə barədə fikir bildirməklə başladı: “Partiyamızın VI qurultayından üç il ötür. Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu”.

“Bu gün Ulu Öndərin arzularını reallaşdıran, “Dəmir yumruq” siyasətinin müəllifi Prezident İlham Əliyev 44 gün ərzində dünya miqyasında görünməyən Qələbəyə - Qarabağ Azərbaycandırımızı özümüzə qaytarmaqla Azərbaycan xalqının o yarasına məlhəm qoydu”,-deyən X.Musayev bildirib ki, bu qələbə dövlət başçımızın son 17 illik prezidentlik fəaliyyətinin reallığıdır: “Prezident İlham Əliyev qurultayda çıxışı zamanı bildirib ki, ordu quruculuğu hazırlığı da əsas məsələlərdən biri idi və bizim şanlı Qələbəmiz hər şeyi özü deyir: “Bütün bu hazırlıq istiqamətləri nəticədə bir nöqtədə birləşdi - 44 günlük müharibədə və bizim tarixi Qələbəmiz bizim qürur mənbəyimizdir. Bundan sonra əsrlərboyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır. İndi biz yeni dövrə qədəm qoyuruq”.



X.Musayev Prezident İlham Əliyev cənablarının qurultayda ən vacib məsələ olan gənclərlə bağlı növbəti, xüsusi əhəmiyyət daşıyın fikirləri gənc nəslin tərbiyə edilməsi hər bir dövlət üçün xüsusi əhəmiyyət daşıyan məsələdir: “Əgər gənc nəsil tərbiyə edilməsə, əgər gənc nəslə ümumbəşəri dəyərlər aşılanmasa, o zaman gələcəkdə problemlər qaçılmazdır. Çünki biz bu gün də görürük ki, nəsillər dəyişdikcə bəzi ölkələrdə radikal qüvvələr ya hakimiyyətə gəlir, ya da ki, ildən-ilə, seçkilərdən-seçkilərə onlara verilən səslərin sayı çoxalır. Onların arasında faşist partiyaları var, onların arasında islamofob şüarlarla hakimiyyətə gəlmək istəyənlər var, onların arasında radikallar var. Bütün bunlar onu göstərir ki, tərbiyə işində boşluqlar olub. Sadəcə olaraq, ölkələrin təhsil sistemi bu sahəyə diqqət yetirməyib. Amma tərbiyə həm dərslər zamanı verilməlidir, eyni zamanda, ölkədə hökm sürən ab-hava ilə - o da tərbiyə üsullarından biridir. Məsələn, əgər Azərbaycanı misal gətirsək, bizdə iqtidarın siyasəti xalq tərəfindən məhz ona görə dəstəklənir ki, iqtidarın siyasəti xalqın maraqlarını güdür. Harada ki, xalqın maraqları ön plandadır, o ölkələrdə nəsildən-nəslə keçən ənənələrlə yaşayır və biz bu ənənələri yaşatmalıyıq. O ölkələrdə ki, milli identifikasiya artıq arxa plana keçir, o ölkələrdə ki, ənənəvi dəyərlər demək olar ki, deqradasiyaya uğrayır, o ölkələrin gələcəyi çox problemli ola bilər”.

YAP-ın ötən dövrdə böyük yol keçdiyini deyən X.Musayev onu da vurğulayıb ki, ölkəmizdə uğurlu dövlət gənclər siyasəti həyata keçirilir, gəncliyin inkişafı üçün bütün imkanlar yaradılır: “44 günlük müharibə və Zəfər Qələbəmiz gənclərdə torpaq, Vətən sevgisi onları yumruq kimi birləşdirdi, 30 ilin işğalına son qoymağa, üçrəngli bayrağımızı işğal altında olan torpaqlarımızda dalğalandırmağa səslədi və qəhrəmancasına buna nail oldular. Bu günün prioritet məsələlərindən biri şəhid ailələrinə, qazilərimizə diqqət və qayğının göstərilməsidir.”

***R.HÜSEYNOVA***



# Banisi Heydər Əliyev olan Yeni Azərbaycan Partiyasının strategiyası

*İbrahim Zeynalov*
*Tarix elmləri doktoru, professor,*
*Yeni Azərbaycan Partiyasının üzvü*

Yeni Azərbaycan Partiyasının yaranmasından 29 il keçir. Yeni Azərbaycan Partiyasının banisi ulu öndər Heydər Əliyevdir. Azərbaycan Respublikasının Prezidenti, YAP-ın sədri İlham Əliyev partiyanın VII qurultayında giriş nitqi söylədi və qeyd etdi ki, "Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaranmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi".

2021-ci il martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayı əvvəlki qurultaydan fərqli olaraq Vətən müharibəsində qazandığımız zəfərdən sonra Azərbaycanda yaranmış yeni ictimai-siyasi şəraitdə, mənfur düşməndən azad olmuş Vətən torpaqlarında coşğun ruh yüksəkliyi ilə bərpa proqramının qarşıya qoyduğu strateji vəzifələrin, işlərin həyata keçirilməsinə başlandığı bir zamanda keçirildi.

Qurultayda Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev proqram xarakterli giriş nitqində ümummilli lider Heydər Əliyevin banisi olduğu partiyanın yaranma tarixinə, həmin dövrdəki ictimai-siyasi vəziyyətə, partiyanın Azərbaycanın ictimai-siyasi , sosial-iqtisadi və mədəni inkişafında oynadığı böyük rola nəzər salıb, Respublikanın siyasi, iqtisadi,sosial və hərbi potensialının yaradılması və gücləndirilməsi, Azərbaycanın dünyaya inteqrasiya etməsi, dünyanın böyük dövlətlərinin hesablaşdığı, regionun və dünyanın nüfuzlu bir dövlətə çevrilməsi, əhalinin sosial-maddi vəziyyətinin yaxşılaşdırılması sahəsində həyata keçirilən sanballı, əhəmiyyətli işlərdən, 44 günlük şanlı qələbədən, Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən, vətənimizin ərazi bütövlüyünün bərpa edilməsindən və qarşıda duran geniş, hərtərəfli proqram xarakterli vəzifələrdən bəhs etdi.

Qurultay zamanı Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi yolun, bu yolda həyata keçirilən taleyüklü tədbirlərin, dövlət quruculuğu sahəsində görülən işlərin elmi-nəzəri təhlili verildi, nəticələr çıxarıldı, qarşıda duran vəzifələr və strateji istiqamətlərdən danışıldı.

Bu bir həqiqətdir ki, Yeni Azərbaycan Partiyasının yaranması, onun tarixi missiyası Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması ilə bağlıdır. Yeni Azərbaycan Partiyasının fəaliyyəti müstəqil Azərbaycanın keçdiyi yolla eynidir.

1991-1992-ci illərdə və 1993-cü ilin birinci yarısında Respublikadakı siyasi vəziyyətə nəzər salaq. Hakimiyyətdə Azərbaycan Xalq Cəbhəsi təmsil olunurdu. AXC ölkəni idarə etməkdə səriştəsiz, təcrübəsiz olduğunu göstərdi. Ölkənin bölgələrində müxtəlif siyasi qüvvələr hakimiyyəti özbaşına ələ keçirməyə başladılar, hətta hakimiyyət uğrunda mübarizə silahlı qarşıdurmalara çevrilirdi. Ölkə parçalanmaq, qardaş qırğını təhlükəsi ilə üzləşdi. Nəticədə vəziyyət son dərəcə təhlükəli xarakter aldı, cəbhələrdə isə erməni silahlı qüvvələri Azərbaycan torpaqlarını - kəndlərimizi, şəhərlərimizi ələ keçirirdi. Bakıda və bölgələrdə xaos və ümidsizlik, inamsızlıq şəraiti yaranmışdı. Xalqı ən çox narahat edən yenicə əldə etdiyimiz müstəqilliyimizi itirmək təhlükəsinin yaranması idi.

Məhz, Vətənin bu son dərəcə ağır və məsuliyyətli çağında ən müdrik, düzgün və xilasedici addımı Azərbaycan xalqı atdı. Xalq yeganə çıxış yolunu və Azərbaycanın dağılmaqdan, parçalanmaqdan xilasını Heydər Əliyevin, müdrik şəxsiyyətin, el ağsaqqalının hakimiyyətə gətirməkdə gördülər. Bununla da, Azərbaycanın bütün bölgələrində Heydər Əliyevi hakimiyyətə gətirmək məqsədi daşıyan xalq hərəkatı başladı. Hərəkatın önündə gedən 91 nəfər ziyalı 1992-ci il oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə, el ağsaqqalına "Azərbaycan Sizin özünüzü gözləyir" çağırışı ilə müraciət etdi. Müraciətdə Yeni Azərbaycan Partiyasının yaradılması və ona Heydər Əliyevin rəhbərlik etməsi təkidlə xahiş olunurdu. Azərbaycan ziyalılarının müraciəti, əslində Heydər Əliyevə xalqın çağırışı idi. Ulu öndər Azərbaycanda mövcud mürəkkəb vəziyyəti düzgün dəyərləndirərək, xalqla birlikdə olmaq, müstəqilliyimizin xilası, qorunub saxlanması naminə ziyalıların müraciətinə saygı və hörmətlə yanaşaraq oktyabrın 24-də çağırışa göndərdiyi cavab, əslində, tarixi bir sənəd idi. 5 bənddən ibarət olan bu qiymətli sənəddə göstərilirdi: "İndi əsas vəzifə dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək, vətəndaşlara azad, demokratik prinsiplərə əsaslanan həyat və yaşamaq şəraiti yaratmaq və s. Bu tarixi sənəddə, həm də ulu öndər tərəfindən Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və hərbi-strateji vəziyyəti təhlil olunurdu. Heydər Əliyev bildirdi ki, yaradılacaq Yeni Azərbaycan Partiyası müstəqil dövlətimizin "ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər." Bu fikirlər Heydər Əliyev tərəfindən 29 il öncə söylənilmişdi. Nə qədər uzaqgörənliklə, müdrikcəsinə söylənilmişdi. Bu dəyərli sözləri söyləməklə ulu öndər Yeni Azərbaycan Partiyasının yaradılmasına və onun fəaliyyətində iştirak etməyə hazır olduğunu ifadə edirdi. Yeni Azərbaycan Partiyasının təsis konfransının Bakı şəhərində keçirilməsi mümkün olmadığı üçün konfrans 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində keçirildi. Konfransı giriş sözü ilə Təşkilat Komitəsinin sədri Heydər Əliyev açdı və nitq söylədi, yaradılacaq partiyanın məqsəd və vəzifələrindən danışdı. Müzakirə və çıxışlardan sonra YAP-ın yaradılması haqqında qərar qəbul olundu. Konfransda Partiyanin Proqram və Nizamnaməsi qəbul edildi və Heydər Əliyev yekdilliklə YAP-ın sədri seçildi.

Ulu öndərin rəhbərliyi ilə YAP-ın yaradılmasından 29 il keçir. Bu illərdə YAP Azərbaycanın müstəqilliyinin xilasında, onun qorunub saxlanmasında, möhkəmləndirilməsində, xalqımızın ictimai-siyasi həyatında, tarixi müqəddəratında həlledici rol oynadı. YAP Azərbaycanda dünyəvi, hüquqi, demokratik dövlətin yaradılmasında, respublikanın ərazi bütövlüyü uğrunda mübarizədə, ölkə daxilində əmin-amanlıq, ictimai həmrəylik və sabitliyin, ərzaq, enerji, ekoloji təhlükəsizliyin təmin edilməsində öncül rol oynayan parlament tipli, kütləviliyi özündə ifadə edən siyasi partiyadır.

Heydər Əliyevin xalqın təkid tələbi ilə 1993-cü il iyunun 9-da Bakıya gəlməsi ilə YAP-ın fəaliyyəti Azərbaycan və xalqımızın taleyində, tarixi müqəddəratında həlledici və misilsiz rol oynadı. Bununla müstəqilliyimizin tarixində yeni bir mərhələnin başlanğıcı qoyuldu.

VII qurultayda çıxış edən Azərbaycan Respublikasının Prezidenti, YAP-ın sədri İlham Əliyev qeyd etdi ki, " Faktiki olaraq 1992-ci ilin noyabr ayı gənc ölkəmizin həyatında yeni bir mərhələyə yol açdı. Ondan sonra heç bir il keçməmiş - 1993-cü il oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident vəzifəsinə seçildi və ölkəmizin böhrandan çıxma prosesin başladı". Daha sonra Respublika Prezidenti İlham Əliyev bildirdi ki, Azərbaycan Respublikasının həqiqi müstəqilliyi məhz 1993-cü il iyun ayında Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə təşəkkül tapdı.

Respublika Prezidenti İlham Əliyev müstəqilliyin ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışına qədərki dövrünü (1991-1993-cü ilin iyunun 14-ə qədər) təhlilini verərək bildirdi ki, "Biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər. Mən demişəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın. Bu müstəqillik tariximiz ondan başladı, 1991-ci ilin oktyabrından yox. Halbuki, 1991-ci ilin 18 oktyabrını biz Müstəqillik günü kimi qeyd edirik. Ancaq hər kəs bilməlidir ki, o, bizdən asılı olan proseslər deyildi. Azərbaycan hətta gecikmişdi. Artıq bir çox keçmiş müttəfiq respublikalar öz müstəqilliyini elan etmişdilər".

Respublika Prezidenti qeyd etdiyi kimi SSRİ dağılırdı, bu prosesin qarşısını almaq mümkün deyildi. Çünki 80-ci illərin ortalarından başlayaraq Moskvanın Kommunist rəhbərlərinin gördüyü tədbirlər, islahatlar bir nəticə vermirdi, əksinə parçalanma prosesini sürətləndirirdi. Respublika prezidenti düzgün olaraq sual edir: "Nəyi gözləyitdilər 18 oktyabra qədər? Ondan əvvəl müstəqillyi elan etmək olmazdımı? Əlbəttə olardı. Ona görə də bizim əsl müstəillik tariximiz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır".

Hadisələrin təhlili göstərir ki, YAP-ın sədri kimi Naxçıvandan Bakıya gələn və 1993-cü ilin oktyabrında Azərbaycan Respublikasının prezidenti seçilən Heydər Əliyev 1993-2003-cü illərdə Azərbaycana rəhbərliyi müstəqillik tarixində həlledici illər olmuşdur. Bu illərdə Azərbaycanda dövlətçiliyin əsaslarının qoyulmasında, onun qorunub saxlanması və möhkəmləndirilməsində YAP-ın rolu çox böyükdür.

Bu illərdə Ulu Öndərin ciddi səyi ilə 20 Yanvar faciəsinə, Xocalı soyqırımına siyasi qiymət verilmiş, hər iki faciənin baş verdiyi tarixi şərait, onların başvermə səbəbləri açıqlanmışdır. Həmçinin müstəqilliyin ilk illərində mövcud daxili siyasi vəziyyət, hakimiyət böhranı və hakimiyyət uğrunda mübarizə və siaysi hərc-mərclik və d. baş verən proseslər, hadisələr təhlil edilmiş, səbəblər açıqlanmış, hakimiyyət boşluğunun (1991-1993-cü illər) Respublika rəhbərliyinin laqeydliyinin ağır nəticələri açılıb göstərilmişdir.

Qurtuluş hərəkatının önündə gedən YAP ölkədə siyasi böhranın, hərc-mərcliyin, hakimiyyət boşluğunun, vətəndaş müharibəsinin qarşısının alınmasında, dövlətçiliyin xilasında və sonrakı illərdə dövlət müstəqilliyinin qorunub saxlanması uğrunda mübarizədə (1993-1995), yeni dövlət quruculuğunun həyata keçirilməsində, siyasi, iqtisadi və sosial islahatların aparılmasında misilsiz rol oynamışdır.

YAP başda ulu öndər Heydər Əliyev olmaqla Azərbaycanın iqtisadi müstəqilliyinin möhkəmləndirilməsində,yeni iqtisadi sistemə keçid: iqtisadi siyasətin formalaşması və islahatların aparılmasında, müstəqil Azərbaycanın neft strategiyasının, həmçinin investisiya siyasətinin, sahibkarlıq sektorunun inkişaf etdirilməsində həlledici rol oynamışdır.

YAP, həm də müstəqil dövlət quruculuğunun əsas istiqamətlərindən biri olan, hüquqi dövlət quruculuğu: Qanunçuluğun bərpası, Konstitusiyanın qəbul edilməsi, demokratik təsisatların, insan hüquqları və azadlıqlarının təmin edilməsində, hüquq islahatlarının keçirilməsində, müstəqil məhkəmə hakimiyyətinin və digər hüquq mühafizə orqanlarının formalaşdırılmasında ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə başlıca iştirakçı olmuşdur.

Heydər Əliyevin rəhbərliyi altında respublikanın ən böyük kütləvi dayağa malik olan YAP Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması prosesində: ictimai-siyasi sabitliyin möhkəmləndirilməsində və vətəndaş cəmiyyətinin strukturunun - siyasi partiyaların, qeyri-hökümət təşkilatlarının və digər vətəndaş təsisatlarının formalaşdırılmasında, söz və vicdan azadlığının bərqərar olmasında, Azərbaycanda milli təhlükəsizliyin təmin olunmasında, xarici siyasət problemlərinin yeni müstəvidə qurulmasında, həmçinin ordu quruculuğunda da fəaliyyəti həmişə yüksək qiymətləndirilmişdir.

Yeni Azərbaycan Partiyasının son 17 ildəki fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti, Ulu Öndərin ən sədaqətli, layiqli davamçısı, 44 günlük Vətən müharibəsinin qalibi, müasir müharibələr və diplomatiya tarixinə yeni şanlı səhifə yazan İlham Əliyevin adı ilə bağlıdır.

2003-cü ildən sonrakı dövrdə Azərbaycan müstəqil dövlət kimi özündən əvvəlki təməl üzərində daha da inkişaf etmişdir. Təsadüfü deyil ki, 2003-cü ildən sonrakı dövr " Müstəqillik tariximizin İlham Əliyev dövrü" adlanır. Respublika Prezidenti İlham Əliyevin həyata keçirdiyi müdrik, qətiyyətli, düşünülmüş, uzaqgörən və milli maraqların təmin olunmasına yönəlmiş daxili və xarici siyasəti sayəsində bu dövr xalqımızın tarixinə siyasi, sosial-iqtisadi, milli-mənəvi həyatın bütün sahələrində dinamik və sürətli inkişaf və nəhəng quruculuq illəri kimi daxil olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, YAP-ın sədri İlham Əliyev qurultaydakı proqram xarakterli nitqində ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan YAP-ın müstəqil Azərbaycan dövlətinin inkişaf tarixində, Respublikanın davamlı olaraq sürətlə inkişaf edən ölkəyə çevrilməsində, sosial-iqtisadi inkişafın müasir Azərbaycan modelinin formalaşmasında müstəsna rolundan bəhs edərək qeyd etdi ki, "Biz bütün işləri ardıcıllıqla edirik və əgər son 17 illik tariximizə nəzər salsaq görərik ki, qarşıya hədəflər qoyulurdu, hədəflər düzgün müəyyən edilirdi, biz bu hədəflərə çatırdıq və ondan sonra qarşımıza yeni hədəfləri qoyurduq. Beləliklə, həm siyasi, həm iqtisadi sahədə dayanıqlı inkişafı təmin etdik, beynəlxalq aləmdə Azərbaycanı çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevirdik və əsas məsələmizi - ərazi bütövlüyümüzün bərpasını təmin etdik".

Ulu öndər Heydər Əliyevin siyasətinə sadiq qalan, bu siyasəti böyük uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, YAP-ın sədri İlham Əliyev bildirdi ki, "Həyat onu göstərdi ki, biz son 17 il ərzində doğurdan da tarixi uğurlara imza atdıq... Əminəm ki, bizim tarixçilərimiz, politoloqlarımız, alimlərimiz bu dövrü də məqalələrdə, kitablarda, dərsliklərdə düzgün əks etdirilərəkdir. Çünki bu gənc ölkəmizin yeni dövrü idi, əvvəlki dövrə əsaslanmış, o möhkəm təmələ əsaslanmış, amma yeni dövrüdür. Çünki bu da təbiidir. Çünki hər dövrün öz tələbləri var. Biz 1990-cı illərin tələbləri ilə XXI əsrdə yaşaya bilmərik. Hətta bu gün müharibədən sonra yeni bir dövr başlayır. Əvvlki dövrdə əldə edilmiş bütün uğurları biz kənara qoymalıyıq. Bəli, bu, bizim üçün fundament yaratdı, baza yaratdı. İmkan yaratdı ki, biz əsas məqsədimizə çataq". Beləliklə qeyd edə bilərik ki, son 17 ildə Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində, uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan Respublikası dünyanın ən sürətlə inkişaf edən ölkəsinə və regionun lider dövlətinə çevrilmişdir.

# Partiya sədrlərinin Qarabağa səfəri: kim necə nəticəyə gəldi?



### İqtidarın təşəbbüsünü qiymətləndirənlər də var, ona qarşı çıxanlar da...

Azərbaycan hakimiyyətin yerli və xarici mətbuat nümayəndələrinin, diplomatik nümayəndəlik təmsilçilərinin, ictimai birlik və sosial şəbəkə fəallarının işğaldan azad olunmuş Qarabağ torpaqlarına səfərlər təşkil etməsi, erməni qəsbkarlarının 30 illik istila dövründə törətdikləri vandalizm, vəhşilik izlərini real şəkildə nümayiş etdirməsi, ilk növbədə, belə qənaətə gəlməyə zəmin yaradır ki, artıq dünya ictimaiyyəti də uzun illər onlardan gizlədilən aşkar terrorçuluq münasibətini dərk etməyə, həqiqəti görməyə başlayıblar. Çünki bu səfərlər özü-özlüyündə təbii sənəddir - 30 ildə viran qoyulmuş torpaqlarımızın, mədəniyyət abidələrimizin, müxtəlif dini ocaqlarımızın, məzarlarımızın üzərində törədilmiş barbarlığın dəlilli, sübutlu sənədi...

Bu əsnada daha bir vacib və əhəmiyyətli məqam diqqəti cəlb edir: hakimiyyətin təşəbbüsü ilə ölkəmizdə fəaliyyət göstərən müxtəlif yönlü siyasi partiyaların işğaldan azad olunmuş ərazilərimizə səfər təşkil etməsi həm iqtidar-müxalifət münasibətlərinin, dialoq mühitinin yeni məcrada formalaşmasına, həm də reallaşdırılan siyasi islahatlar baxımından onun davamlı xarakter almasına geniş və münbit şərait yaradır. Əbəs deyil ki, müxalifət partiyalarının sədrləri də bizimlə söhbətlərində bu və bu kimi digər məsələlərə aydınlıq gətirdilər.

### KXCP sədri Mirmahmud Mirəlioğlu: "Alşıqlanılası addımdır"

Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlu SİA-ya açıqlamasında hisslərini gizlədə bilməyərək qeyd edib ki, iqtidarın atdığı bu addım və irəli sürdüyü təşəbbüsü yüksək qiymətləndirir. "Bu təşəbbüs yaxın gələcəkdə ölkənin daxili siyasi mühiti və partiyalararası münasibətinin yeni formatda təqdim olunması baxımından alqışlanılası addımdır", deyən KXCP sədri hər zaman bu kimi təşəbbüslərə dəstək göstərəcəyini bildirib.

### Ağ Partiyanın sədri Tural Abbaslı: "Mən özümü bəxtli insanlardan hesab edirəm ki, hazırda işğaldan azad edilmiş torpaqlarımıza ayaq basıram"

Ağ Partiyanın sədri Tural Abbaslı da qeyd edib ki, ümummilli maraqlar bütün siyasi maraqlardan üstündür və iqtidarın heç bir siyasi partiyalar arasında fərq qoymadan Qarabağın azad olunmuş torpaqlarına səfər təşkil etməsi yalnız təqdirəlayiq hal olaraq qiymətləndirilə bilər. "Bir var siyasi rəqabət, bir də var siyasi rəqabətə aid olmayan hadisə. Mən bu səfəri ümummilli maraqlarımız baxımından alqışlayıram və düşünürəm ki, bütün bunlar partiyalararası və hakimiyyətlə aparılacaq dialoq mühitinə böyük və müsbət təsirlərini göstərəcək", deyə müxalifətçi partiya sədri bildirib və onu da qeyd edib ki, bu, Azərbaycanın dünyaya olan bir mesajıdır ki, hər zaman istər xarici, istərsə də daxili siyasətində konstruktivlik yolunu seçir. "Həmçinin mən özümü bəxtli insanlardan hesab edirəm ki, hazırda işğaldan azad edilmiş torpaqlarımıza ayaq basıram", Tural Abbaslı bildirib.

### AXCP və Müsavat yenə də xəyanət yolunda...

Lakin bu arada daha bir məqam sözügedən səfərə radikal müxalifət partiya rəhbərlərinin qatılmamalarıdır. Xatırlatmaq yerinə düşərdi ki, hələ Vətən müharibəsi başlayan zaman ölkəmizdə fəaliyyət göstərən bir çox müxalifət partiyaları dxili siyasi maraqların kənara qoyularaq ümumdövlət maraqlarından çıxış edəcəklərini, Ali Baş Komandanın ətrafında birləşəcəklərini əks etdirən bəyanat imzaladılar. Məhz həmin bəyanat imzalanarkən AXCP və Müsavat kimi partiyalar sözün əsl mənasında yaxalarını kənara çəkərək, hətta ümummilli maraqlar çərçivəsindən də çıxış etməyəcəklərini açıq-aşkar nümayiş etdirdilər.

İndi də edilən dəvətlərə və irəli sürülən təşəbbüslərə rəğmən, 27-30 il işğalda qalan torpaqları ziyarət etməkdən də qaçan Əli Kərimli, Arif Hacılı kimi adamlar sübut etdilər ki, onlar Qarabağ mövzusunu yalnız şəxsi məqsədləri üçün istifadə ediblər və torpaqlarımız azad edildikdən sonra görünür işğalçı düşmənlər qədər onlar da məyus olublar.

### ASDP sədri Araz Əlizadə: "Əli Kərimli ilə Arif Hacılı Qarabağı satanlardır, indi də boğazlarında qılçıq qalıb"

Bununla bağlı saytımıza açıqlama verən Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadə bildirib ki, iqtidarın bu təşəbbüsü çox layiqli addımdır və belə bir səfərdə iştirak etmək onda yalnız partiya sədri kimi deyil, həm də Azərbaycan vətəndaşı olaraq qürur doğurur, fərəhləndirir.

Lakin istər AXCP sədri Əli Kərimlinin, istərsə də Müsavatın başqanı Arif Hacılının səfərə qatılmamalarından təəccüblənməyə dəyməz. "Bir halda ki, onlar vaxtilə Qarabağ torpaqlarını satıblarsa, indi onların bu torpaqlara gəlmək istəməmələri bu adamların aşkar düşüncələrinin təsdiqidir. Hazırda ermənilər işğal etdikləri əraziləri sarsıdıcı məğlubiyyətə uğrayaraq necə təhvil verməyə məcbur qalıblarsa, Əli Kərimli, Arif Hacılı kimiləri də onlar qədər pəjmürdə olublar. Bu qələbə onların boğazlarında qılçıq kimi ilişib-qalıb", deyə ASDP-nin sədri bildirib.

**Rövşən RƏSULOV**

---

# Ramiz Şabanov: "Qalib Sərkərdənin azad olunmuş torpaqlara hər səfəri dünyaya mesajdır"



"Hərbi əməliyyatların bitməsindən sonra Prezident İlham Əliyevin mütəmadi olaraq işğaldan azad edilmiş rayonlara səfər etməsi Ali Baş Komandanımızın həsrətində olduğumuz torpaqlarımızın bərpa və quruculuq işlərinə nə dərəcədə həssas yanaşdığının sübutudur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva növbəti tarixi səfəri martın 15-də Füzuli və Xocavənd rayonlarında olublar.

Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır". Bu fikirləri YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov SİA-ya açıqlamasında bildirib.

"Bu tarixi səfərlərlə dövlət başçımız 28 ildən sonra işğaldan azad olunmuş torpaqlarımıza hər dəfə ayaq basdığı zaman "Qarabağı işğaldan azad etdik, Qarabağa qayıtdıq, Qarabağa sahibləndik",- deyərək həmin rayonlarda üç rəngli bayrağımızı qaldırdı. Bir daha Qarabağın onun olduğunu və bir daha bundan sonra kimsənin ona yiyələnə bilməyəcəyini göstərdi",-deyən Ramiz Şabanov onu da bildirib ki, Prezidentimizin "Qarabağ Azərbaycandır və nida" ifadəsi, eləcə də 44 günlük Vətən müharibəsində Onun rəhbərliyi ilə Azərbaycan xalqının və Azərbaycan Ordusunun Qələbəsi bütün dünyaya göstərdi ki, biz bir qarış torpağımızı belə heç kəsə verən deyilik. Bu, dövlətimizin, xalqımızın, ordumuzun, milli birliyimizin Qələbəsidir. Bu, haqqın və ədalətin zəfər çalmasıdır.

"Deyir, hər şeyi doğru zamanda, doğru edir. Zəfərlə bitən vətən müharibəsində də bir daha sübut etdi ki, Vətənimizin, Qarabağımızın işğalda qalmasına bu qədər dözmək olmaz. Ali Baş Komandanımız hakimiyyətə gələndən böyük zəfər gününə kimi, 17 il ərzində usanmadan, heç bir güzəştə getmədən Qarabağ məsələsində düşmən Ermənistanı, onun havadarlarına, supergüclərə qarşı qətiyyətlə mübarizə apardı, Azərbaycanın haqq səsini dünyaya çatdırdı. Dövlət başçımız xalq qarşısında söz verdiyi kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli istiqamətində Ümummilli Lider Heydər Əliyevin başladığı siyasi kursu yüksək peşəkarlıq və uğurla davam etdirdi. Sonda Ali Baş Komandanımız "Dəmir yumruq" siyasəti ilə hədəfinə çatdı, ata vəsiyyətini həyata keçirdi, işğal olunmuş Azərbaycan torpaqlarını azad etdi",-deyən YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov bildirib ki, Prezident İlham Əliyev Azərbaycan torpaqlarını 30 illik işğaldan 44 günə azad edən, ərazi bütövlüyümüzü bərpa edən böyük sərkərdə kimi tarixə düşdü. Yeni tarix yazıldı, Azərbaycanda yeni mərhələ başladı, İlham Əliyev Azərbaycanın zəfər və qəhrəmanlıq simvoluna çevrildi!

R.Şabanov söyləyib ki, işğaldan azad olunmuş əraziləri sülh, əməkdaşlıq və təhlükəsizlik bölgəsinə çevirən Prezident İlham Əliyev səfəri digər işğaldan azad olunmuş ərazilər kimi Xocavəndin də, keçmiş Hadrut rayonunun da, kəndlərinin də, bütün yaşayış yerlərinin də tezliklə bərpa olunacağına bir daha əminlik yaradır: "Erməni vandalları Ağdam, Füzuli və başqa rayonlarda olduğu kimi Xocavənddə də, keçmiş Hadrut rayonunda da, onun kəndlərində də böyük dağıntılar törədiblər. Azərbaycanlıların qədim yaşayış kəndi olan Tuğ kəndində azərbaycanlılara aid bütün evləri yerlə-yeksan ediblər. Erməni barbarları, eyni zamanda, qədim yaşayış məskəni kimi tanınan Azıx kəndini də, Azıx mağarasını da dağıtmağa cəhd ediblər. Onlar qanunsuz olaraq Azıx mağarasında işlər aparıblar. Heç bir şübhə yoxdur ki, ermənilər Azıx mağarasında qanunsuz işlər aparmaqla tarixi saxtalaşdırmağa çalışıblar. Lakin müzəffər Ali Baş Komandan İlham Əliyevin söylədiyi kimi ermənilər bütün bunlara görə cavab verəcəklər, dəymiş ziyanı ödəyəcəklər".

"Dövlət başçımız müharibədən 4 ay keçməsinə baxmayaraq artıq bütün işğaldan azad olunan torpaqlarımızda böyük quruculuq işlərinə başlanılıb",-deyən Ramiz Şabanov Prezident İlham Əliyev Füzuli rayonundan Şuşaya qədər uzanan Zəfər yolu layihəsində sonra Füzuli-Hadrut yolunun da təməlini qoyduğunu deyib: "Bu yol-nəqliyyat layihələri ilə yanaşı yaxın zamanlarda Bərdə-Ağdam yolunun çəkilişi icra ediləcək. Həmçinin, Horadizdən Zəngilana qədər də yol çəkiləcək. Əlbəttə ki, bu cür layihələrin həyata keçirilməsi birbaşa işğaldan azad edilmiş ərazilərin inkişafı üçün böyük əhəmiyyət daşıyır. Bütün bu işlər Prezident İlham Əliyev cənablarının son 17 ildə bütün vədlərini yerinə yetirdiyi kimi, "Qarabağı cənnətə çevirəcəyik" vədini də tezliklə reallaşdırmaq üçün siyasi iradə və qətiyyət nümayiş etdirir. Bu da xalqımızda öz rəhbərinə əminlik, inam yaradır. Məhz bu baxımdan, səfərlər həm də insanların torpaqlarımıza qayıdış ruhunu qaldırır, məsələnin əsas motivasiyaedici tərəfi budur. Qısacası, Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə bu qədər dəyər verməsi çox əhəmiyyətlidir, çünki insanların bu bölgə ilə bağlı münasibətləri daha da ciddiləşir və ora qayıtmağa istəyi artmağa başlayır. Dövlət başçımız dediyi kimi: "Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik. Xocavənd bizimdir, Qarabağ Azərbaycandır!"

**R.HÜSEYNOVA**

---

## Həkimdən XƏBƏRDARLIQ: Koronavirus bəzi insanlarda əlilliyə səbəb ola bilər



Koronavirus infeksiyasına yoluxub sağalan insanlarda müəyyən əlamətlər bir müddət davam edir. COVID-19-un ən çox müşahidə edilən simptomlarından biri iy və dadbilmənin itməsidir. Bir aydan sonra əksəriyyət insanlarda bu hisslərin tam və ya hissəvi bərpası baş verir. 3-6 ay ərzində böyük əksəriyyətdə iy və dadbilmə bərpa olunur. Az adamlarda bundan artıq vaxt keçsə də, iy və dadbilmə hissi bərpa olunmur. Bu, çox böyük psixoloji sarsıntıya səbəb olur. Belə halda təkcə selikli qişa yox, iybilmə-dadbilmədə iştirak edən reseptor aparat da zədələnir ki, bunun da bərpası az sayda insanlarda mümkün olmur və bu vəziyyət bir müddət davam edir. Xəstəliyi keçirən insanların üçdəbirində isə ümumi halsızlıq, zəiflik, iş qabiliyyətinin azalması, diqqəti cəmləməkdə çətinlik, yaddaş, yuxu pozulması, bədən, əzələ ağrıları, subfebril hərarət bir müddət müşahidə olunur. Belə halların keçməsi üçün zaman lazımdır.

AZƏRTAC xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov "COVID-19, vaksinasiya və gigiyena" mövzusunda çıxışında deyib.

Baş infeksionist qeyd edib ki, xəstəliyi ağır keçirən, ağciyərlərin dərin zədələnməsi olan və sonrakı müddətlərdə fibrozlaşma prosesi gedənlərdə bərpa prosesi insanın rezervindən asılıdır: "Yəni xəstə cavandırsa və yanaşı xəstəlikləri yoxdursa, bərpa prosesi sürətli gedəcək və az qalıq əlamətlərlə yekunlaşacaq. Lakin yaşlıdırsa və yanaşı xəstəlikləri varsa, onun bərpası problemlidir. Bu, bəzən əlilliyə də səbəb ola bilər".

# Paşinyan yenə çaşdı: ATƏT-in sədri qarşısında hansı bəyanatları irəli sürdü?



### Yaxud, erməni baş naziri "Artsax"ın cəhənnəmə, "statusunun" isə gora getdiyini hələ də anlamırsa...

Ermənistanın baş naziri Nikol Paşinyan ölksindəki ağır siyasi-iqtisadi böhran vəziyyətini həll etməsi, ondan çıxış yollarını tapması yerinə yenidən sərsəm bəyanatları ilə gündəmə gəlib. Əslində onun ATƏT-in fəaliyyətdə olan sədri Ann Linde ilə görüşü zamanı səsləndirdiyi bəyanatı əsasında həm də deyə bilərik ki, Paşinyan sözün əsl mənasında çaşıb və növbəti səhvini buraxıb.

Məsələ ondadır ki, ATƏT-in sədri ilə keçirilən görüşündə Azərbaycanı ittiham edən, eləcə də ölkə Prezdenti İlham Əliyevin sülhə, iqtisadi imkanlara, mehriban qonşuluq prinsiplərinə yönələn bəyanatına qarşı heç bir əsası olmayan fikirlər irəli sürən Nikol Paşinyan çox yəqin ki, siyasi hakimiyyətinin qorunması üçün belə bir yanlış mövqeyə keçid edib. Bu gün erməni müxalifətinin onun kürsüsünü laxlatmağa istiqamətlənmiş cəhdlərinin qarşısını almaq üçün onun bənzər mövqe nümayiş etdirməsi isə gələcəyinə yaxşı heç nə vəd etmir. Daha doğrusu, o belə davam edərsə, əslində daha acınacaqlı vəziyyətə düşə, ümumiyyətlə ölkəsini bütün geoiqtisadi layihələrdən, habelə müsbət təsirlərdən təcrid halına sala bilər. Bu zaman sual yaranır ki, hərgah Nikol Paşinyan yenidən köhnə ampluasına geri dönərsə onu və Ermənistanı daha hansı hallar gözləyə bilər?

### İmzalanmış üçtərəfli Bəyanatdakı müddəalara Azərbaycan Prezidenti İlham Əliyev və Rusiyanın dövlət başçısı Vladimir Putinlə yanaşı, məhz Nikol Paşinyan da imza atıb və o, sərsəm bəyanatlarını ifadə edərkən, əslində, bu reallığı dərk etməlidir

SİA xəbər verir ki, Ermənistanın baş nazirinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin yalnız ATƏT-in Minsk qrupunun həmsədrləri çərçivəsində həlli mümkünlüyü barədə fikir səsləndirməsi onun növbəti yanlış düşüncə tərzinin aşkar göstəricisidir.

Məsələ ondadır ki, ATƏT-in Minsk qrupu münaqişə başlayandan ötən ilin 27 sentyabr tarixinə qədər əslində heç bir səmərəli iş qura bilmədi, o cümlədən, Ermənistanın işğalçılıq siyasətinə qarşı birmənalı, qətiyyətli mövqe sərgiləməyərək torpaqlarımızın uzun illər ərzində işğal altında qalmasına, dağıdılmasına, talan edilməsinə, 1 milyondan çox qaçqın və məcburi köçkünlərimizin öz doğma yurd-yuvalarından didərgin düşmələri faktlarına göz yumdu.

Başqa tərəfdən, 44 günlük müharibənin nəticələri sübut etdi ki, Azərbaycan özünün suverenliyini, ərazi bütövlüyünü bərpa etmək üçün haqlı mübarizə apardı və bu müharibədən qalib olaraq ayrıldı. Eyni zamanda, 30 il ərizndə BMT və s. nüfuzlu beynəlxalq təşkilatların görə bilmədikləri işi qısa müddətdə həyata keçirdi.

Həmçinin, Prezident İlham Əliyev qalibiyyətlə nəticələnən müharibədən sonra Qarabağ münaqişəsinin tarixdə qaldığını, eləcə də "artsax" adlı qondarma qurumun mövcud olmadığını qətiyyətlə bəyan etməsi erməni baş nazirinin yuxarıda qeyd ediləb bəyanat, ya da gülünc tələblərinin üzərindən xətt çəkmiş oldu. Habelə, Moskvada imzalanmış üçtərəfli Bəyanatdakı müddəalara Azərbaycan Prezidenti İlham Əliyev və Rusiyanın dövlət başçısı Vladimir Putinlə yanaşı məhz Nikol Paşinyan da imza atıb və o, sərsəm bəyanatlarını ifadə edərkən əslində bu reallığı dərk etməlidir.

### Nikol Paşinyan İlham Əliyevin fikirlərini qulaqlarından sırğa edib-asmalıdır!

Daha bir məsələ Nkol Paşinyanın Dağlıq Qarabağın "statusu" ilə bağlı növbəti düşüncəsiz bəyanatı ilə bağlıdır. Onun ATƏT-in fəaliyyətdə olan sədri Ann Linde ilə görüşü zamanı "Dağlıq Qarabağın statusunun dəqiqləşdirilməsi və "artsax" ermənilərinin öz müqəddəratlarını təyin etmə hüquqlarını realizə etmələri" barədə bəyanat səsləndirməsi ümumiyyətlə, heç bir hüquqi çərçivəyə sığmır və əgər bu gün beynəlxalq aləm Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə tanıyırsa, müharibə zamanı ədaləti bərpa etməsinə dəstək göstərdisə, artıq həmin faktın özü erməni baş nazirinin yenidən xülyalar içində çırpınmasını, fikir və düşüncələrinin əsassızlığını kifayət qədər sübuta yetirir.

Mühüm məsələ isə budur: Nikol Paşinyan Azərbaycan Prezidentinin işğaldan azad edilmiş torpaqlarımıza səfəri zamanı "Stasus gora getdi" kəlamını, o cümlədən, martın 16-da Şuşaya gerçəkləşdirdiyi növbəti səfərində isə "Artsax" cəhənnəmə getdi" fikrini qulaqlarından sırq edib-asmalıdır. Belə ki, onun və ümumiyyətlə erməni xülyalarının, "300 minillik erməni" saxta tarixinin bundan sonra heç bir təsiri, ya da realizəsi mümkün deyil. Reallıq budur - Qarabağ Azərbaycandır!

### Nikol Paşinyan hələ də işğalçı mövqeyinə xas bəyanat səsləndirib, yanlış fikirlərini ATƏT-in fəaliyyətdə olan sədri Ann Lindeyə sırımağa çalışıb - belə davam edərsə, o, bundan sonra daha görmədiyi "günlərini" görməli olacaq...

Maraqlıdır ki, halarasa, kimlərəsə güvənərək hələ də ummaq imkanlarının tükənmədiyini sanan, həqiqət faktorunu ya dərk etməyən, ya da dərk etmək istəməmək yönündə uğursuz israrlıq nümayiş etdirən Nikol Paşinyan hələ də işğalçı mövqeyinə xas bəyanat səsləndirir və hətta bir az da irəliyə gedərək, ölkə başçımızın bəyanatlarını "destruktivlik" iddiası fonunda zorla ATƏT sədrinin düşüncələrinə sırımağa çalışır. Çünki Azərbaycan illər idi ki, regionda sülhün, sabitliyin əldə edilməsi üçün çoxsaylı diplomatik səylər göstərib və bu səyləri Ermənistanın istər əvvəlki, istərsə də hazırkı rəhbərliyi qəbul etməyiblər. Nəticədə Azərbaycan Vətən müharibəsi sayəsində işğalçılara sarsıdıcı məğlubiyyət yaşadıb.

Əgər bu gün Paşinyan sözügedən görüşü çərçivəsində "hərbi əsirlər" iddiasını da irəli sürürsə, bunun da günahını özünün və hakimiyyətinin üzərində axtarmalıdır. Çünki dəfələrlə bəyan olunub ki, imzalanmış üçtərəfli Bəyanatdan sonra bölgədə qalmış, oraya sızmış silahlılar hərbi əsir statusu daşımırlar, onlar terrorçu və silahlı təxribatçılardırlar ki, saxlanılaraq Azərbaycanın qanunları çərçivəsində hüquqi cəzalarını alırlar. Bax, bu faktları görməzlikdən gələrək hələ də destruktivlik nümayiş etdirən Nikol Paşinyan yaxşı olardı ki, ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşü sırasında sərsəm bəyanatlarını ifadə etməsi yerinə ölkəsinin, xalqının gələcəyini düşünüb, doğru məntiqdən çıxış edərdi. Təəssüf ki, bizlər bunun şahidi olmuruq və söz yox ki, belə davam edərsə, Pşinyan bundan sonra daha görmədiyi "günlərini" görməli olacaq...

*Rövşən NURƏDDİNOĞLU*



# Əli Kərimlinin "qoruyucu mələyi" Sevinc Osmanqızı arasında kommunikasiya xətləri....

Dünənə qədər gecə-gündüz "ingilis bayrağı" olan, ata qatili "yanlar"ın müdafiəsinə qalxan "Osmanqızı TV" kanalının rəhbəri Sevinc Osmanqızı ilə AXCP sədri Əli Kərimli arasında yaşanan son günlər günün əsas mövzusuna dönüb, daha doğrusu "qara pişik" məsəli. Satqın satqının yanında olar. Bu, o kəslərdir ki, nəinki "müxalifət" olduqları gündən, deyərdim ki, dünyaya gəldikləri gündən. Həm də belələrinin çörəyi dizləri üstə olar. Görünür, erməndən gələn "tula payları" az olub. Və ölkəmizdəki radikal müxalifətlə bu düşərgənin xaricdəki uzantılarının arasından keçən "qara pişik" Əli Kərimli-Sevinc Osmanqızı savaşına start verib. Elə o gündən də Sevinc Osmanqızı Əli Kərimlini öz "kanal"ında yaş yuyub quru sərir, Əli Kərimli də trolları vasitəsilə Sevinc Osmanqızını hədələyir, onu linc etməklə qorxudur. Bax, budur bunların əqidəsizliyi, satqınçılığı, 5 qəpiyə bir-birilərini elə satırlar ki, heç bilmirlər nə vaxt başları qalmaqala düşdü.

### Sevinc Osmanqızı: "Bu günə kimi Əli Kərimliyə nə etmişəmsə, səhv etmişəm"

Təəccüb etdim, S.Osmanqızında etdiyi səhvləri etiraf etmək "düşüncəsi" hardan? Məsələ anlaşılandır. Yəni onsuz da Azərbaycan cəmiyyətinin mütləq əksəriyyəti Əli Kərimlinin səhv yolda olduğunu, xəyanətkar mövqe sərgilədiyini, ermənipərəstlərin dili ilə danışdığını, ölkəmizə və xalqımıza qarşı aparılan kampaniyaların tərkib hissəsi kimi çıxış etdiyini dünən də deyirdi, bu gün də deyir. O zaman S.Osmanqızı dünənə kimi AXCP sədrinin "qoruyucu mələyi"nə çevrildiyiniz və mətbuat katibliyi etdiyiniz, xalqımıx Qələbə sevincini qeyd etmək üçün küçə yürüşünə çıxarkən gəncləri təxribata çağıran Əli Kərimlinin "müdafiəsinə" qalxaraq xalqımızı təhqir edərək "xalqsüvənlik etməsinlər" dedi-niz. Bir medalın iki üzü. Yəni dünənə kimi Əli Kərimlini ağızdolusu tərif edərək "göylərə qaldıran" Sevinc Osmanqızı bu gün AXCP sədrinin, onun partiyasının siyasi "manevr"lərini təftiş etməyə başlamağın... Əslində, hər dəfə olduğu kimi, bu dəfə də davanın "yorğan davası" olduğu şübhəsizdir. Yəni xaricin müxalifət düşərgəsinə göndərildiyi "maliyyə məsələsində" problem yaranıb, problem də həmişə olduğu kimi, bütün "pay"ları özü mənimsəmək.

### Nəticədə ...

Sevinc Osmanqızı Əli Kərimlinin "OsmanqızıTV" kanalına ayaq basmağı bir tərəfə, tərəflər arasındakı düşmənlik o həddə çatıb ki, S.Osmanqızı nəinki üstüörtülü, elə açıq kontekstdə də Əli Kərimlinin və rəhbərlik etdiyi partiyanın heç bir gücə sahib olmadığını rahat şəkildə açıq-aydın bildirərək, onu digər ölkələrdəki "müxalifət"lərlə müqayisə edir, savadsız, səviyyəçsiz, satqın olduğunu və sosial şəbəkələrdə boş-boş danışmaqda günahlandırır. Osmanqızı onu da etiraf edir ki, Əli Kərimli ona qarşı miqyasölçülməz kampaniya başlayıb. Ancaq S.Osmanqızı da sosial şəbəkə qruplarında bəlli olan, olmayan bütün məziyyətlərini, "əziyyətlərini" aləmlə bir edib. Necə deyərlər, açıb sandığı, töküb pambığı. İndi bu sandıqdan çıxan pambıqla kim-kimin qəsdinə duraraq başını pambıqla kəsəcək, bunu da zaman göstərəcək...

*Rəfiqə HÜSEYNOVA*

# Baydenin Putinlə bağlı açıqlamasına münasibət bildirilib



ABŞ Prezidenti Co Baydenin Rusiya lideri Vladimir Putinlə bağlı verdiyi açıqlama, Ağ Evin başçısının Rusofob siyasətini davam etdirdiyini təsdiqləyir. SİA RİA Novostiyə istinadən xəbər verir ki, bu fikirləri Federasiya Şurası komissiyasının sədri Andrey Klimov çərşənbə günü RİA Novostiyə açıqlayıb.

Qeyd edək ki, bir qədər əvvəl Bayden, rus həmkarını "qatil" hesab edib-etməyəcəyi ilə bağlı bir medianın sualını cavablandırarkən, belə cavab verib. Vladimir Putinin Amerika seçkilərinə iddia edilən müdaxiləsinə görə "cavab verəcəyini" də qeyd edib. Nəzərə çatdıraq ki, bir gün əvvəl Amerikadakı Amerika kəşfiyyat xidməti tərəfindən ABŞ-da keçmiş prezident seçkiləri ərəfəsində Rusiya tərəfinin Baydeni nüfuzdan salmağa və rəqibi Donald Trampı dəstəkləməyə çalışdığı barədə bir hesabat yayımlanıb. Eyni zamanda, Amerika xüsusi xidmət orqanları Rusiya tərəfinin seçki prosesinə müdaxilə cəhdlərini qeydə almayıb.

"Cənab Bayden, vitse-prezident olarkən, Rusiyanı ziyarət etdiyi zaman, dövlət başçısının kim olmalı olduğundan danışıb. Bu zaman isə ona aydın şəkildə başa salıblar, izah ediblər ki, bura onun üçün nə ştatlardan, nə də NATO üzvlərindən biri deyil", deyə Klimov bildirib.

O, Baydenin "Ukraynadakı çevriliş və bir sıra digər əhvalatlarla birbaşa əlaqəli olduğunu" da xatırladıb.

*İnam Hacıyev*





Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Hansı geyimlər sonsuzluq və xərçəng yaradır?

### Müasir geyimlərin milli genefondun sağlamlığına hansı təsirləri ola bilər?

Hər birimizin geyim dolabında heç olmasa bir dənə də olsa dar geyimimiz var. Ya şalvar, ya ətək, ya da dar köynək. Bəzilərimizin isə dolabı sadəcə dar geyimlərlə doludur, biz buna bəzən dəb, bəzən stil, bəzən də imic deyirik. Maraqlıdır, geyimlərimizin sağlamlığımızda etdiyi mənfi dəyişikliklər barədə bir şey bilirikmi? Bilənlərlə işimiz yoxdur, bilməyənlər üçün bu yazımızın maraqlı olacağını düşünürük.

### Müasir geyimlər xərçəng, sonsuzluq və mədə xorası yaradır

İngiltərə alimləri dar şalvar, korsetlər və sıx paltarların ciddi xəstəliklərə səbəb ola biləcəyini müəyyənləşdirmişlər. Bristol Fizioterapiya Klinikasının rəhbəri Riçard Briknellin sözlərinə görə, cins və dar şalvarlar qarının aşağı nahiyəsini sıxır, nəticədə mədə turşusu həzm borusuna qalxır və mədə qıcqırması baş verir. Bu isə sonsuzluq, mədə xorası və xərçəngə gətirib çıxara bilər.

Süni yolla qarını yığan korsetlər isə nəfəs alarkən diafraqmanın tam olaraq aşağı düşməsinə mane olur. Bu isə stress və əsəb gərginliyi yaradır. Bundan başqa sinirlərin sıxılması nəticəsində çanaq və beldə ağrılar və keyimə baş verir.

Mütəxəssislərin açıqlamalarına görə, düymə ilə bağlanan dar yaxalı köynəklər də sağlamlığa zərər verir. Çox sıx bağlanmış yaxa göz xəstəliklərinə gətirib çıxarır. Boyunda olan damarın daim sıxılması nəticəsində göz təzyiqi artır və bu da qlaukomaya səbəb olur.



Kanadada aparılan bir araşdırma zamanı məlum olub ki, yeni evlənən gənclərin 15-20 faizində aşkar olunan sonsuzluq faktları, məhz müasir geyimlərin təsiri nəticəsində yaranır. Sonsuzluğun 40 faizinin kişi, 40 fazinin qadın və 20 fazinin hər ikisinin səbəb olduğu aşkarlanıb.

Lakin problem qadınların şalvar geyməsində deyil, son dövrdə hər 2 cinsin dar şalvar geyinməyə üstünlük verməsi və bunun sağlamlığa təsirləri barədədir. Belə ki, son elmi tədqiqatlar dar paltarların qadınlarda sonsuzluqdan tutmuş bir sıra təhlükəli xəstəlikləri yaratdığını təsdiq edib.

### Müasir qadın geyimləri nəyə səbəb olur?

Həkim-terapevt Sahilə Hüseynova deyir ki, bel onurğamızdan çıxan 2 sinir var, əgər bunlar təzyiq altında qalsa, istiqamət aldığı ayağımızda ağrıların meydana gəlməsinə səbəb olur: "Nisbətən çəkisi çox olan insanlarda, hamilə qadınlarda və şəkər xəstələrində bu cür problem daha çox qabarır. Məhz buna görədir ki, belə insanlara dar geyimlərdən uzaq olmağı məsləhət görürük. Xüsusilə də, hamiləlik dövründə qadınlara boş alt paltarından, rahat donlardan istifadə etmək məsləhət görülür. Hamiləliyin 7-ci ayından sonra, ən əsası son aylarda körpənin başının aşağıya doğru çevrilməsi ilə əlaqədar olaraq qadınlara qarın və bel nayihəsini sıxacaq paltarlar geyinmək məsləhət görülmür. Çünki, bu halda həm ananın, həm də bətndə olan körpənin sağlamlığ üçün ciddi problemlər yaranır".

Həkim deyir ki, qadınların uzun müddət dar şalvar geyməsi damarların sıxılaraq qeyri-normal vəziyyət almasına səbəb olur: "Rəhndə iltihablanma, göbələk, ayaqların büküm yerlərində bədən yaralarına da səbəb olur. Bu cür geyimlər mütəmadi geyinilərsə rəhm və yumurtalıq xərçənginə də səbəb ola bilər. Daha çox dəbdə olan dar cins şalvarlar əsasən bel və mədənin aşağı bölgəsini həddindən artıq sıxdığına görə mədə yırtılmasına, mədə xorasına-qastritə səbəb ola bilər".

### Paltarların materialı da sağlamlığa ciddi təsir edir

Əsasən, qış aylarında geyilən neylon və sintetik parçalardan hazırlanmış geyimlərin də sağlamlıq baxımından təhlükəli olduğu bildirilir. Tül corablar, günlük həyatımızda istifadə etdiyimiz kapron corablar da bu qəbildən olanlardır. Həkim deyir ki, xüsusən də revmatizm- yel xəstəliyindən şikayəti olanlar bu cür geyimlərlə öz xəstəliklərini daha da qüvvətləndirirlər. Eyni zamanda dar geyimlərin digər bir zərəri də qan dövranına maneə törətməsidir. Bu geyimə görə bədənin bəzi bölgələrinə gec çatan qan insanın üşüməsinə səbəb olur. Qadınların ayaq hissədən daha çox üşüməsi və soyuqlaması bir çox xəstəliyə səbəb olur".

Mütəxəssis bildirir ki, xüsusilə gənc qızlar buna diqqət etməlidirlər: "Amma gözəl olmaq, incə və zərif görünmək məqsədi əsas planda olduğundan paltarlar seçilərkən onun təbilliyi və sağlamlığa təsiri nəzərə alınmır. Gənc qızların istifadə etdiyi dar paltarların parçaları bədənə yapışdığı üçün soyuq hava birbaşa bədənə təsir edir. Halbuki gen-bol bir şalvar arada hava boşluğu yaradır və çöldəki soyuq hava birbaşa bədənə təsir etmir. Tez-tez sidiyə gedən, qarın boşluğunda sancılar olan və cinsi orqanından maye gələn qadınlar bu xəstəlikləri məhz dar geyimin sayəsində qazanırlar".

### Dar şalvarlar kişilərə hansı problemlər yarada bilər?

Həkim deyir ki, kişilərin dar şalvar geyməsi isə kişi yumurtalıqlarının bədənə daha yaxın yerdə dayanmasına səbəb olur: "Yumurtaların bədəndən daha az temperaturda olması lazımdır, amma dar geyim onları bədənə sıxdığı üçün bədənin temperaturu ilə uyğunlaşır. Bu vəziyyətin də sperma hüceyrələrinin hərəkətliliyinə və sayına mənfi təsir göstərdiyi sübut edilib. Sonsuzluğun başlıca səbəblərindən biri məhz budur".

Mütəxəssis kişilərə dar şalvar geyməmələrini bir də ona görə tövsiyə edir ki, dar şalvar və dar alt paltar geymək sperma yollarının tıxanmasına yol aça bilir: "Qeyd etdiyimiz kimi, bunun sonu da sonsuzluqla nəticələnir. Dar geyim geyinən kişilərin sonsuzluğunun eyni zamanda bir səbəbi də o geyimlə saatlarla oturaraq işləməsidir. Uzun yol sürücüləri, kompüter arxasında uzunmüddətli işi olanlar da bu qəbildən olanlardır. Dar geyimlər hüceyrələri korlaşdırır, zəiflədir. Bu cür geyimlərin qan dövranına maneə törətdiyi və bunun da toxumaların və hüceyrələrin korlaşmasına səbəb olduğu məlumdur".

### Dikdaban, darpəncəli ayaqqabılardan uzaq olun

Hər birimiz həyatımızda bir dəfə də olsa küçədə gedərkən bir qadının dikdaban ayaqqabıda ayağının büdrəməsini və topuğunu burxutmasının şahidi olmuşuq.

Araşdırmalar zamanı məlum olub ki, qadınlar qıçlarının daha uzun görünməsi, boyunun olduğundan hündür görünməsi və dəblə ayaqlaşmaq üçün dikdaban ayaqqabı geyirlər. Hətta 25-30 smlik dikdabanda gəzə bilən qadınlar da var.

Ortopediya mütəxəssisi Sahib Həsənovun sözlərinə görə qadın elə ayaqqabı geyməlidir ki, bir-iki saatdan sonra günün bitməsini və evə gedib ayaqqabıları çıxarmağı arzulamamalıdırlar: "Bu cür burxulmalar topuq nahiyəsinə su yığılması və sümük boşluğuna da səbəb ola bilər. Qadınlar mümkün qədər az hündürlüklü- ən çox 5 sm dabanı olan ayaqqabı geyməlidirlər. Dabanın hündürlüyü artdıqca pəncənin narahatlığı da bir o qədər artır. Nəticədə pəncəyə və barmaqlara daha çox yük düşür və barmaq əyrisi kimi problemlər yaranır. Bir qədər əvvəl Rusiyada 1900 adam arasında aparılan bir araşdırma zamanı məlum oldu ki, onların 29 fazində gənc yaşda dikdaban ayaqqabı çox geydiyi üçün ayaq və sinir problemləri yaranıb".

### Dikdaban sevənlər üçün bəzi xırda detallar

Məlumat üçün qeyd edim ki, dikdaban ayaqqabı geymək istəyən, amma bunu bacarmayan qadınlar üçün Koreyada xüsusi kurslar açılıb. Biz dikdaban ayaqqabını necə geymək lazım gəldiyini öyrətmək fikrində deyilik, çünki bunun zərərini bilirik. Amma dikdabanlardan vaz keçə bilmədiyiniz halda sizə yararlı olacaq bəzi məsləhətlərimiz var. Bu ortepediya həkimi ilə müəyyənləşdirilmiş kiçik bir siyahıdır.

**1.** Əgər hündürdaban ayaqqabıdan əl çəkə bilmirsinizsə o zaman seçim çox olan mağazaya gedin, sizə ən uyğun olan ayaqqabını seçməkdə tənbəllik etməyin.

**2.** Ayaqqabının içinə silikon döşəməlik yerləşdirin, bu sizi yıxılma və topuq burxulmalarından qoruyacaq.

**3.** Qalın dabanlı dikdabanlar seçin, ayaqqabının dabanı nə qədər qalın olsa üzərində daşıdığı ağırlığı da bir o qədər rahatlıqla bərabər yayar.

**4.** Ayağınız ağrımağa başlarsa, mütləq həkimə müraciət edin.

İnsan Tanrının yaratdığı ən gözəl canlıdır. Yaradan insanın istifadə etməsi və sağlam yaşaması üçün hər cür təbii nemətlər və vasitələr yaradıb. Ona görə də, geyim seçərkən onun təbii materiallardan olması, bədənin formasına uyğun olması və normal hərəkət üçün maneə yaratmamasına diqqət verməliyik. Süni vasitələrlə, əcaib geyimlərlə, qeyri-normal ayaqqabılarla bu gözəlliyə xələl gətirməklə yanaşı, həm də fiziki sağlamlığımıza ciddi zərbə vurmuş oluruq. Sağlamlıq isə bizə bəxş edilmiş ən böyük nemətdir. Süni gözəllik üçün sağlamlığımızı qurban verməyə dəyməz.

*Lalə Mehralı*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

18 mart

# “Tuttosport”: Ronaldo “Mançester Yunayted”ə qayıdır!

***“Yuventus”un futbolçusu Kriştiano Ronaldo sabiq klubu “Mançester Yunayted”ə qayıda bilər. Bu barədə “Tuttosport” məlumat yayıb. Daha əvvəl 36 yaşlı hücumçunun 2009-2018-ci illərdə çıxış etdiyi “Real”a geri dönəcəyi ilə bağlı xəbərlər yayılsa da, onun “Mançester Yunayted”ə qayıtmaq ehtimalının da olduğu bildirilib.***



Ronaldo 2003-2009-cu illərdə “qırmızı şeytanlar”da çıxış edib. O, komanda ilə 3 dəfə Premyer Liqa, 1 dəfə İngiltərə kuboku, 1 dəfə də Superkubokun qalibi olub. Həmçinin portuqaliyalı oyunçu “Mançester Yunayted”lə Çempionlar Liqasını və klublararası dünya kubokunu qazanıb. Futbolçu ilk “Qızıl top”unu da bu klubda əldə edib.

Qeyd edək ki, Ronaldo “Yuventus”a 2018-ci ilin yayında “Real”dan keçib. Onun Turin klubu ilə müqavilə-si gələn ilin yayına qədərdir.

# Erol Bulut: “Fənərbaxça”dan getməyəcəm



“Fənərbaxça”nın istefa verəcəyi deyilən baş məşqçisi Erol Bulut komandadan ayrılmaq niyyətində deyil. Qol.az xəbər verir ki, bu barədə “Sabah” qəzeti məlumat yayıb. 45 yaşlı mütəxəssisin klub rəhbərliyi ilə görüşündə sözügedən məsələ haqda danışdığı bildirilib. Bulut deyib: “Bu komanda “Beşiktaş”ı məğlub edə bilər və yenidən çempionluq əhval-ruhiyyəsinə girər. İstefa verməyi qətiyyən düşünmürəm. “Fənərbaxça” pis futbol oynamır. Statistika da bunu göstərir. Sadəcə, qol vura bilməmək problemimizi həll etməliyik”.

Xəbərdə o da qeyd olunub ki, klub prezidenti Ali Koç məsələ ilə əlaqədar Bulutla görüşəcək. Qeyd edək ki, mediada martın 21-də keçiriləcək “Beşiktaş”la matçdan ya əvvəl, ya da sonra Erol Bulutun istefasını açıqlayacağı haqda məlumatlar yayılmışdı.

# Neftin qiymətində davamlı artım ola bilərmi?




Bazarda neft tədarükü boldur, buna görə də qiymətlərin artmasına səbəb olacaq yeni bir “super dövr” ərəfəsində deyilik. Bu barədə Beynəlxalq Enerji Agentliyinin (IEA) məlumatında deyilir. Agentliyə görə, neft qiymətlərində dramatik və davamlı artım gözlənilmir.

“Neft qiymətlərinin 70 dollara yaxınlaşması, bunun yeni bir “super dövr” ilə müşayiət olunduğu məsələsini gündəmə gətirdi. Ancaq məlumatlarımız və təhlillərimiz bunun əksini deyir. Əvvəla, neft ehtiyatları qiymətdəki azalmaya baxmayaraq hələ də yüksəkdir. Əlavə olaraq, neft çənlərində qlobal neft bazarını təmin edəcək kifayət qədər məhsul var. İnkişaf etmiş ölkələrdəki neft ehtiyatları isə 110 milyon barrel ilə hələ də, keçən ilin yanvar ayının səviyyəsindən yüksəkdir”, - deyə IEA bildirib.

# Sinoptiklərdən xəbərdarlıq: Dağlıq rayonlarda qar yağacaq



***Sinoptiklər ölkə ərazisində gözlənilən yağıntılı və küləkli hava şəraiti ilə əlaqədar xəbərdarlıq ediblər.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, martın 18-də günün ikinci yarısında Bakıda və Abşeron yarımadasında qısamüddətli şimal-qərb küləyi əsəcəyi, sürətinin 15-18 metr/saniyə olacağı, arabir saniyədə 20-23 metrədək güclənəcəyi proqnozlaşdırılır.

Martın 18-i gündüzdən 19-u gündüzədək əsasən şimal və qərb rayonlarında arabir yağış, dağlıq rayonlarda qar yağacağı bildirilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir 20-25 metr/saniyəyədək güclənəcək.

# Bergüzar Korel “Kanlı Yayın”la ekranlara qayıdır



***2016-2018-ci illər arasında yayımlanan “Vatanım Sensin”dən sonra serial setlərindən uzaq qalan türkiyəli aktrisa Bergüzar Korel yeni layihə ilə pərəstişkarlarının qarşısına çıxacaq.***

“Sözcü” xəbər verir ki, “Kanlı Yayın” adlı serialda Nesli-han obrazına həyat verəcək aktrisa ilə yanaşı Serkan Altunorak və Yiğit Özşener də rol alacaq. Üç ildir seriallarda rol oynamayan Bergüzar Korel gənc qızın ölümü ilə başlayan serialda Serkan Altunorakın arvadını canlandıracaq. Yiğit Özşener isə Nejat adlı polis məmuru rolunu ifa edəcək.

## Keçmiş məhkumdan “TT” markalı tapança tapılıb



Binəqədi Rayon Polis İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş V.Mikayılovdan “TT” markalı tapança, patron sandığı və üç patron götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış tədbirlərlə onun Cinayət Məcəlləsinin 177-ci (oğurluq) maddəsi ilə axtarışda olması da müəyyənləşdirilib. Hazırda faktla bağlı təhqiqat aparılır.

## ELAN

Balakərim Nəsiman oğlunun adına verilmiş Bakı şəhəri, Sabunçu rayonu Kürdəxanı qəsəbəsi, H.Hacıyev küçəsi 1 “a” ünvanında yerləşən fərdi yaşayış evinə verilmiş seriya FM 001364 saylı “Qeydiyyat vəsiqəsi” itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
*“Azərbaycan” nəşriyyatında çap olunur*
*Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600